# DİN xəbərlərə aydınlıq gətirib

Səfər Mehdiyevi saxlayan polislərin işdən çıxarılması xəbərləri əsassızdır



**Daxili İşlər Nazirliyi (DİN) Dövlət Gömrük Komitəsinin sabiq sədri Səfər Mehdiyevi saxlayan yol polisi əməkdaşlarının sərəncama götürülməsi ilə bağlı yayılan xəbərlərə aydınlıq gətirib.**

DİN-in mətbuat xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev APA-ya bildirib ki, polis əməkdaşlarının işdən çıxarılması ilə bağlı iddialar əsassızdır.

*Qeyd edək ki, Dövlət Gömrük Komitəsinin sabiq sədri Səfər Mehdiyevin idarə etdiyi avtomobilin saxlanmasını əks etdirən videogörüntülər yayılıb. Görüntülərdə Səfər Mehdiyevin avtomobildən enərək polislərlə yüksək səs tonu ilə danışdığı əks olunub.*



# "Qarşılarında baş əyirəm"

Ramiz Novruz uzun sürən xəstəlikdən sağaldı

**Uzun müddətdir səhhətində problem yaşanan Xalq artisti Ramiz Novruz sağalıb.**

Bu barədə sənətçinin qızı Şəfəq Novruzov və oğlu Cavidan Novruz sosial şəbəkə hesablarında yazıblar.

(səh.7)

№ 141 (5663), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 11 avqust 2022-ci il (cümə axşamı)



# QIZIL idmançılarımız

Hacı Əliyev, Mariya Stadnik və Turan Bayramov İslamiadanın qalibi olublar

**Azərbaycanı Türkiyənin Konya şəhərindəki V İslam Həmrəyliyi Oyunlarında təmsil edən qadın güləşçi Mariya Stadnik final görüşünə çıxıb.**

50 kq çəki dərəcəsində rəqib özbəkistanlı Jasmina İmmayeva olub. Görüş Stadnikin vaxtından əvvəl 10:0 hesablı təmiz qələbəsi ilə başa çatıb.

Beləliklə, o, karyerasında ikinci dəfə İslamiadanın qalibi olub. Daha əvvəl o, Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarında da qızıl medal qazanmışdı.

Azərbaycanın sərbəst güləşçisi Hacı Əliyev də final görüşünə çıxıb.

(səh.2)




# İşlərə başlanılıb

"Google" xəritəsinin Qarabağ hissəsi yenilənir

**İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti "4MAPS Bilgi Teknolojileri" MMC tərəfindən işğaldan azad edilmiş ərazilərimizlə bağlı "Google" və digər xəritələrin yenilənməsi, həmçinin 3D xəritənin hazırlanması üçün işlərə başlanılıb.**

İZİA-dan "APA-Economics"ə verilən məlumata görə, xəritələrin yenilənməsində və 3D xəritənin hazırlanmasında "LİDAR" cihazından istifadə olunur. Yaxın vaxtlarda onlayn xəritələrdə Qarabağda yerləşən şəhərlərin, kəndlərin, küçələrin və digər obyektlərin adlarının Azərbaycan dilində göstəriləcəyi gözlənilir.

(səh.2)

# Hər gün rəqibə qarşı işləyir

Mixeil Saakaşvili: "Ukrayna 10 aya qələbə qazanacaq"



**"Ukraynanın tam qələbəsi ən bədbin ssenariyə əsasən belə 10 ay ərzində təmin olacaq".**

"Report" xəbər verir ki, bunu Gürcüstanın keçmiş Prezidenti Mixeil Saakaşvili feysbuk səhifəsində yazıb.

Onun sözlərinə görə, Ukrayna komandanlığının tələsən bir yerinin olmadığı üçün döyüş meydanında buraxdığı səhvlər də azlıq təşkil edir: "Ukraynanın ön xəttdəki fəaliyyətini belə dəyərləndirirəm: bu gün biz artıq 1 800 tankı məhv etmişik. Bu orta hesabla günə 5 tank deməkdir. Fikrimcə, potensial hücumun qarşısını tam almaq üçün 3000-3500 tankın məhv edilməsi vacibdir. Əgər bu templə davam edərsə, 240-300 günə tam qələbə təmin ediləcək. Odur ki, hər gün rəqibə qarşı işləyir".

# Xankəndidə Azərbaycanın ayaq səsləri eşidilir

## Ermənistan dərk etməlidir ki, siyasi cığallıqları əhəmiyyətsizdir





**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Türkiyədə səfərdə olarkən Ermənistan tərəfinin addımlarından, son günlər yaşanan gərgin proseslərdən danışıb.**

Nazir vurğulayıb ki, müxtəlif bəhanələrlə Ermənistan-Azərbaycan normallaşma prosesinə xələl gətirmək düzgün yanaşma deyil. C.Bayramovun sözlərinə görə, bu, Ermənistanın maraqlarına da cavab vermir:

"Ermənistanın, nəhayət, bunu anlayacağına ümid edirik. Bu məsələlər zaman-zaman müzakirə olunur. Elə məqamlar var ki, onlar ictimailəşdirilmir. Amma Azərbaycanın mövqeyi Rusiya və Avropa İttifaqının vasitəçiliyi ilə əldə olunan razılaşmaların tam icrasından ibarətdir. Biz həm də işğala son qoyulduqdan sonra sülh müqaviləsinə başlamağı təklif etmişdik. Bunu açıq şəkildə bəyan etməklə öz mövqeyimizi ortaya qoymuşduq. Azərbaycanın çağırışı bir il müddətində cavabsız qaldı. 2022-ci ilin əvvəlindən Azərbaycan gələcək sülh sazişi ilə bağlı təməl prinsiplərini ortaya qoydu. Sonra isə bunları Ermənistana təklif etdik.

(səh.4)

# Bəzi ərzaq mallarının qıtlığı gözlənilir

2023-cü il üçün beynəlxalq təşkilatların da xəbərdarlığı var



**Azərbaycanda illik inflyasiya 13 faizə çatıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.**

Məlumata görə, təkcə iyul ayında istehlak qiymətləri indeksi əvvəlki ayla müqayisədə 100,5 faiz, ötən ilin iyul ayına nisbətən 113,7 faiz olub. Ötən ay ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1 faiz, ötən ilin iyul ayına nisbətən 120,3 faiz təşkil edib.

(səh.3)



# Nazir Zelenskini haqlı sayır

Kuleba: "Rusiyalıların əksəriyyəti Ukraynadakı müharibəni dəstəkləyir"

**Ukrayna xarici işlər naziri Dmitro Kuleba rusiyalılara viza verilməsinin dayandırılması ilə bağlı Avropa İttifaqı (Aİ) və "G7" dövlətlərinə müraciət edib.**

"Report" xəbər verir ki, o bu barədə tviter səhifəsində yazıb.

"Prezident Volodimir Zelenski bu məsələdə israr etməkdə tamamilə haqlıdır. Rusiyalıların böyük əksəriyyəti Ukraynaya qarşı müharibəni dəstəkləyir. Beynəlxalq sərhədlərə hörmət etməyi öyrənənə qədər onlar sərhədləri keçməkdən məhrum edilməlidir", - paylaşımda bildirilib.

# 6 nəfər vəfat edib

Daha 534 nəfər COVID-19-a yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 534 yeni yoluxma faktı qeydə alınıb, 526 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 6 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 803 157 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 790 193 nəfər müalicə olunaraq sağalıb, 9 768 nəfər vəfat edib, aktiv xəstə sayı 3 196 nəfərdir.

*Ölkədə son sutka ərzində 4 587, hazırkı dövrədək isə 7 080 772 test aparılıb.*

# Göygöldə 4 qız dərmandan zəhərlənib



**Göygöldə zəhərlənmə faktı qeydə alınıb.**

APA -nın yerli bürosunun məlumatına görə, hadisə rayonun Heydər Əliyev prospektində yerləşən evlərin birində qeydə alınıb.

2010-ci il təvəllüdlü A.Məmmədova, onun həmyaşıdı M.Hacıyeva, Ş.Rüstəmova və K.Hacıyeva zəhərlənmə diqanozu ilə xəstəxanaya yerləşdiriliblər. Qızlara tibbi yardım göstərilib,vəziyyətlərinin ağır olduğu bildirilir.

Məlumata görə qızlar saçlarında bit olduğu üçün malqaranın dezinfeksiyasında istifadə edilən "Niastol" adlı kimyəvi preparatı saçlarına vurduqları üçün zəhərləniblər.



# "Azərbaycanda informasiya mühiti çirklənib"

Rauf Arifoğlu: "Sosial platformaya inteqrasiya olunmaq lazımdır"

(səh.4)

# "O günə çox qalmayıb"

Elman Məmmədov: "Vaxtı çatanda Şimali Kipri tanıyan ikinci dövlət Azərbaycan olacaq"



(səh.5)



İlham Əliyev OPEC+ formatında da Azərbaycanla Əlcəzairin uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğuladı. Gələcəkdə əməkdaşlığın daha səmərəli və fəal şəkildə aparılması üçün bir çox sahələrin mövcud olduğunu qeyd edən Prezident İlham Əliyev iqtisadi, ticarət, biznes və enerji sahələrində əlaqələri genişləndirməyin zəruriliyini bildirdi.

Prezident İlham Əliyev Ramtan Lamamranın ölkəmizə səfərinin ikitərəfli münasibətlərin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Qonaq bildirdi ki, gözəl, qardaş ölkə olan Azərbaycana səfərdən məmnundurlar və o, göstərilən qonaqpərvərliyə görə təşəkkür etdi. Öz növbəsində əlaqələrimizin genişlənəcəyinə əminliyini ifadə edən Ramtan Lamamra ölkələrimizin bir-birinə göstərdiyi dəstəyi vurğuladı, Azərbaycan ilə Əlcəzair arasında qarşılıqlı etimadın mövcudluğunu məmnunluqla qeyd etdi və bunun bir çox sahələrdə əməkdaşlığın möhkəmlənməsi üçün çox səmərəli nəticələr verə biləcəyini bildirdi.

# İqtisadi, ticarət, biznes və enerji sahələrində əlaqələr genişlənəcək

## Prezident İlham Əliyev Əlcəzairin xarici işlər və xaricdəki milli icma nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri Ramtan Lamamranı qəbul edib.**

Azərtac xəbər verir ki, Ramtan Lamamra Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelməcid Tebbunun salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı. Nazir bildirdi ki, Əlcəzair Prezidenti Azərbaycanda gedən inkişaf proseslərini və Prezident İlham Əliyevin Qoşulmama Hərəkatına çox uğurlu rəhbərliyini böyük maraqla izləyir.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Abdelməcid Tebbuna çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Əlcəzairin Qoşulmama Hərəkatı çərçivəsində ölkəmizin irəli sürdüyü təşəbbüslərə, eləcə də Azərbaycanın təşkilata sədrlik müddətinin uzadılması ilə bağlı qərara verdiyi dəstəyi yüksək qiymətləndirdi. Prezident

# Səfirliyimizə qarşı törədilmiş cinayət işi birgə araşdırılmalıdır

## Baş prokuror Böyük Britaniya səfiri ilə təxribatı müzakirə edib



**Avqustun 10-da Baş prokuror Kamran Əliyev Böyük Britaniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ceyms Şarp ilə görüşüb.**

Qonağı salamlayan Baş prokuror ölkələrimiz arasında ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinə, bütün sahələrdə işgüzar münasibətlərin mövcudluğuna toxunaraq, əməkdaşlığın uğurla inkişaf etdiyini qeyd edib.

Kamran Əliyev ölkəmizdə diplomatik missiyasını başa vuran səfir Ceyms Şarpa səmərəli fəaliyyətinə, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi dövründə Baş Prokurorluq tərəfindən təşkil edilmiş mətbuat konfransları və brifinqlərdə iştirak etdiyinə və ölkələrimizin hüquq mühafizə orqanları arasında konstruktiv əməkdaşlıq əlaqələrinin qurulmasında səylərinə görə təşəkkürünü bildirib.

Səmimi qəbula görə minnətdarlığını bildirən səfir ikitərəfli münasibətlərə toxunaraq Birləşmiş Krallığın Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini qeyd edib. Səfir prokurorluq orqanlarında aparılan köklü islahatları insan haqlarının qorunması və qanunun aliliyinin təmin olunması prizmasından yüksək qiymətləndirib.

Daha sonra avqustun 4-də Azərbaycanın Londondakı səfirliyinin inzibati binasına radikal dini qruplaşma tərəfindən hücum edilməsi faktı ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən başlanmış cinayət işinin istintaqının Birləşmiş Krallığın aidiyyəti orqanları ilə birgə əməkdaşlıq çərçivəsində aparılmasının vacibliyi qeyd olunub.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər müzakirə olunub.

## "Qərbi azərbaycanlıların hansı sənədlərlə torpaqlarını tərk etdikləri yenidən qaldırılmalıdır"

Zaur Məmmədov: ”Qarabağ erməniləri üçün ah-nalə çəkənlər vaxtilə Ermənistanı tərk edən azərbaycanlıların sayının milyonlarla olduğunu unutmasınlar”



**“16 min Qarabağ ermənisini müdafiə edənlər milyonlarla azərbaycanlının Ermənistandakı hüquqları haqqında düşünməli olacaq”.**

Bu barədə Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov deyib. Analitik bildirib ki, qarşıdakı aylarda Azərbaycan və Ermənistan arasındakı münasibətlərdə oranı zorla tərk edən azərbaycanlıların vəziyyəti əsas mövzulardan biri sayılacaq: ”SSRİ tərəfindən əsassız şəkildə qəbul edilən hüquqi aktlar yerli və beynəlxalq ekspertlər tərəfindən dərindən araşdırılacaq. Hazırda Ukrayna, Finlandiyanın gələcək aqibətlərinin Moskva tərəfindən şübhə altına salındığı bir vaxtda ”Ararat Respublikası”nın 1920-ci il sovetlərə hansı ərazilərlə daxil olması məsələsi gündəmdə saxlanılmalıdır. 1920-1991-ci illər ərzində Ermənistanın qanunsuz şəkildə əldə etdiyi 20 min kv. km. torpaqlar öz yiyəsinə qaytarılmalıdır. Qərbi azərbaycanlıların hansı sənədlərlə torpaqlarından sürgün edildikləri, Qərbi Zəngəzurun, Göyçənin hansı qondarma sənədlərlə Ermənistana verildiyi məsələləri yenidən qaldırılmalıdır. Sayları 16 min nəfərə qədər olan Qarabağ erməniləri üçün ah-nalə çəkənlər vaxtilə Ermənistanı tərk edən azərbaycanlıların sayının milyonlarla olduğunu unutmasınlar”.

**İsmayıl**

# İşlərə başlanılıb

## “Google” xəritəsinin Qarabağ hissəsi yenilənir




**İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti ”4MAPS Bilgi Teknolojileri” MMC tərəfindən işğaldan azad edilmiş ərazilərimizlə bağlı ”Google” və digər xəritələrin yenilənməsi, həmçinin 3D xəritənin hazırlanması üçün işlərə başlanılıb.**




İZİA-dan ”APA-Economics”ə verilən məlumata görə, xəritələrin yenilənməsində və 3D xəritənin hazırlanmasında ”LİDAR” cihazından istifadə olunur. Yaxın vaxtlarda onlayn xəritələrdə Qarabağda yerləşən şəhərlərin, kəndlərin, küçələrin və digər obyektlərin adlarının Azərbaycan dilində göstəriləcəyi gözlənilir.

Qeyd edək ki, ”4MAPS Bilgi Teknolojileri” MMC Sumqayıt Kimya Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb və Sənaye Parkının 1,5 hektarlıq ərazisində ”Tədqiqat və inkişaf, kartoqrafiya və naviqasiya xidmətlərinin təşkili” layihəsini həyata keçirəcək. ”4MAPS Bilgi Teknolojileri” MMC ”Apple Maps” və ”Here Technologies” tətbiqinin MDB, Yaxın Şərq və Azərbaycan, ”Yandex Maps” tətbiqinin isə Azərbaycan üzrə təmsilçisidir. Şirkətin əsas fəaliyyət sahəsi xəritələrlə bağlı coğrafi məlumatların toplanılması, formalaşdırılması, 3D və 4D xəritələrin istehsalı xidmətləri olsa da, yeni inşa ediləcək mərkəzdə, həmçinin, proqram məhsulları, oyunlar, ”metaverse” tətbiqlərinin hazırlanması xidmətlərinin göstərilməsi planlaşdırılır. Layihənin reallaşdırılması ilə Azərbaycanda Şərqi Avropa, Gürcüstan, MDB və Orta Asiya ölkələri üçün xəritələrin formalaşdırılması mərkəzi (prosessinq mərkəzi) fəaliyyət göstərəcək.




# QIZIL idmançılarımız

## Hacı Əliyev, Mariya Stadnik və Turan Bayramov İslamiadanın qalibi olublar

**Azərbaycanı Türkiyənin Konya şəhərindəki V İslam Həmrəyliyi Oyunlarında təmsil edən qadın güləşçi Mariya Stadnik final görüşünə çıxıb.**

50 kq çəki dərəcəsində rəqib özbəkistanlı Jasmina İmmayeva olub. Görüş Stadnikin vaxtından əvvəl 10:0 hesablı təmiz qələbəsi ilə başa çatıb.

Beləliklə, o, karyerasında ikinci dəfə İslamiadanın qalibi olub. Daha əvvəl o, Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarında da qızıl medal qazanmışdı.

Azərbaycanın sərbəst güləşçisi Hacı Əliyev də final görüşünə çıxıb.

”Report”un Konyaya ezam olunmuş əməkdaşı xəbər verir ki, 65 kq-da yer alan idmançı həlledici qarşılaşmada Albaniya təmsilçisi Zəlimxan Abakarovla üz-üzə gəlib. Rəqibini vaxtından əvvəl ”tuşe” ilə məğlub edən Əliyev ardıcıl 2-ci dəfə islamiadanın qalibi olub.

O, daha əvvəl 2017-ci ildə Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında qızıl medala sahib çıxmışdı.

Daha bir idmançımız - Azərbaycanın sərbəst güləşçisi Turan Bayramov V İslam Həmrəyliyi Oyunlarında qızıl medal qazanıb.

T.Bayramov iranlı güləşçi Firuzpuur Məhəmmədsadığa 2:1 hesabı ilə qalib gəlib.

Qeyd edək ki, V İslam Həmrəyliyi Oyunları Türkiyənin Konya şəhərində keçirilir. Yarışlar avqustun 18-dək davam edəcək.

Ümumilikdə İslam Həmrəyliyi Oyunlarında İslam Əməkdaşlıq Təşkilatına üzv olan 56 ölkənin idmançıları iştirak edir.

## "Elektron prokurorluq" informasiya sistemi "Elektron hökumət" portalına qoşulacaq




**Nazirlər Kabineti ”Elektron hökumət” portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siahısı”nda dəyişiklik edib.**

APA-nın xəbərinə görə, Elektron hökumət” portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının siyahısı genişləndirilib.

”Elektron prokurorluq” informasiya sistemi ”Elektron hökumət” portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının siyahısına daxil edilib.

*Qeyd edək ki, Prezident İlham Əliyevin ”Elektron prokurorluq” informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 3 mart 2022-ci il tarixli fərmanına əsasən, ”Elektron prokurorluq” informasiya sisteminin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsi Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin edilməli idi.*

## Avropa İttifaqı Rusiyaya qarşı yeni sanksiyalar paketini müzakirə edir



**Avropa İttifaqı (Aİ) Rusiyaya qarşı yeni, sayca yeddinci sanksiyalar paketini müzakirə edir.**

”Report” xarici mətbuata istinadən xəbər verir ki, bu barədə Almaniya hökuməti məlumat yayıb.

Bu sanksiyalar çərçivəsində rusiyalılara Şengen vizalarının verilməsinin qadağan edilməsi təklif olunur.

*Xatırladaq ki, bundan əvvəl Estoniyanın Baş naziri Kaya Kallas Aİ ölkələrini Rusiya vətəndaşlarına turist vizalarının verilməsini dayandırmağa çağırıb.*

## Laçın dəhlizi yeni yola köçürüldükdən sonra...

Asif Nərimanlı: ”Ermənilərin ya getməsi, ya Azərbaycan vətəndaşı olması seçimini sürətləndirə bilər”




**”Laçın dəhlizi Qarabağda qalan ermənilər üçün yol olmaqla yanaşı, həm də qaz, elektrik, internet xətlərinin keçdiyi infrastruktur marşrutudur”.**

*Bu sözləri ”Şərq”ə siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik bildirib ki, dəhliz bu kommunikasiya xətlərinin olmadığı yeni yola köçürüldükdən sonra ermənilər bundan məhrum olacaq:* ”Müharibədən sonra separatçıların işğal dövründə nəzarət etdiyi 31 SES-dən 29-u ordumuzun nəzarətinə keçib. Elektrik təminatını böyük ölçüdə Laçın dəhlizi üzərindən təmin edilirdi. Separatçılar ”alternativ”lərinin olduğunu iddia etsə də, 2 SES-lə təmin etmək çətin olacaq. Xankəndidə elektrik enerjisinin verilməsində fasilələrin yaranması da bunu deməyə əsas verir. Şəhərin elektrik enerjisinin müəyyən hissəsi də Şuşa yarımstansiyasından verilir”.

**A.Nərimanlı vurğulayıb ki, bu ilin mart ayında Xankəndinin qaz təminatında yaranan problemdən sonra Azərbaycan bu istiqamətdə nəzarətini gücləndirdi:** ”Laçın dəhlizindən keçən qaz infrastrukturunun dayanması isə bu məsələdə də ermənilərin ciddi çətinliklə üzləşəcəyindən xəbər verir. Dəhlizin istiqamətinin dəyişməsindən sonra ermənilərin qaldığı ərazilərin onlar üçün yaşaması mümkün olmayan torpaq parçasına çevriləcəyi perspektivi aydın görünür. Bu, ermənilərin ya getməsi, ya Azərbaycan vətəndaşı olması seçimini sürətləndirə bilər. Çoxluğun birinci seçimi edəcəyi ehtimalı daha böyükdür”.

**İsmayıl**

**”Ukraynanın Krımda hərbi aeroportu vurması Moskvaya mesajdır”. Bu sözləri Milli Cəbhə Partiyasının sədr müavini Məhəmməd Əsədullazadə deyib. Politoloq bildirib ki, Krımın bombalanması döyüşlərin yeni mərhələsinin başlanğıcıdır:**



”Kreml dəfələrlə qeyd edib ki, Krım onların qırmızı xəttidir və Ukrayna Krımı

# Krımdan rusların köçü başlayıb

## Moskvanın cəbhə xəttində ciddi itkilər verməsi qaçılmaz olacaq

vurarsa, kəskin cavab zərbəsi endirəcək. Ukrayna Krımda hərbi strateji bazanı vurmaqla, Moskva üzərində psixoloji üstünlük qazandı. Qara dənizdə ”Moskva” kreyserindən sonra Krımın vurulması Kremldə ”soyuq duş” effekti yaratdı. Kiyev uzaqmənzilli dəqiq raketlərə malik olduğunu göstərdi. Deməli, Krımda Rusiya hərbi obyektləri hədəf olacaq. Krımdan rusların köçü artıq başlayıb və Moskvanın cəbhə xəttində ciddi itkilər verməsi qaçılmaz olacaq”.




**Ekspert bildirib ki, Rusiya yeni ərazilər işğal edə bilməsə, ciddi itkilər versə, İstanbulda Ukrayna və Rusiya danışıqları baş tuta bilər:** ”Rusiya Mariupolu geri qaytarmaq şərti ilə Donbası sərhədləri daxilində qalmağı istəyə bilər. Amma Kiyev razılaşmayacaq. Müharibə həlledici mərhələyə qədəm qoyub. Rusiyaya qarşı artilleriya və ballistik raketlərlə əks-hücumlar reallaşacaq. Nəticədə Rusiya Mariupol, Xerson və Zaparojedən geri çəkiləcək. Proseslər ona doğru gedir.

Rusiya məcbur qalaraq Kiyevlə birbaşa təmasa keçmək istəyəcək. Rusiyanın tam məğlubiyyəti isə Putinin hakimiyyətdən getməsi deməkdir. Zamanla Belarus da Rusiyadan üz çevirib, Ukraynaya siyasi dəstək verə bilər”.

**İsmayıl**



# İlham Əliyevin Ankarada çoxistiqamətli görüşləri olub

## Turan Rzayev: “Azərbaycan Ordusunun son antiterror əməliyyatına Türkiyənin tam və birmənalı dəstəyinin görüntüsü və dünyaya mesaj kimi qiymətləndirmək olar”

**Prezident İlham Əliyevin Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə qardaş ölkəyə işgüzar səfəri V İslam Həmrəyliyi Oyunları çərçivəsində baş tutsa da, keçirilən mühüm görüşlərlə də diqqət çəkib. Səfər çəçivəsində Prezident İlham Əliyev ilə Rəcəb Tayyib Ərdoğan arasında təkbətək görüş keçirilib.**

Görüşlə bağlı informasiya az olsa da, tərəflərin əsas müzakirə mövzusunun Ermənistanın Qarabağda törətdiyi son təxribatlar və buna cavab olaraq Azərbaycan Ordusunun həyata keçirdiyi ”Qisas” əməliyyatının olduğu məlumdur. Təsadüfi deyil ki, Rəcəb Tayyib Ərdoğan Qarabağdakı son hadisələrlə əlaqədar bir daha Türkiyənin dəstəyini ifadə edib və şəhidlərlə bağlı başsağlığı verib.

**Siyasi şərhçi Turan Rzayev “Şərq”ə deyib ki, ”Qisas” əməliyyatından qısa müddət sonra Rəcəb Tayyib Ərdoğanın Prezident İlham Əliyevi Türkiyəyə dəvət etməsi faktiki olaraq rəsmi Ankaranın prosesləri yaxından izlədiyini göstərir.** Analitikə görə, bu mənada ölkə başçılarının görüşdə son hadisələr ətrafında müzakirə aparmaları və ortaq strateji addımları müzakirə etdiklərini demək olar: ”Dövlət başçıları arasında həmçinin Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün aparılan danışıqlardakı son durum müzakirə edilib. Əslində son zamanlar cəbhə xəttində artan erməni təxribatları Türkiyə-Ermənistan münasibətlərinə təsirsiz ötüşməyəcək. Rəsmi Ankara dəfələrlə elan edib ki, Türkiyə-Ermənistan münasibətlərinin normallaşması rəsmi İrəvanın atacağı konstruktiv addımlardan və ən əsası Azərbaycanın mövqeyindən asılı olacaq. Yəni Ermənistanın gərginliyi artırması, destruktiv addımlar atması öz növbəsində Ermənistan-Türkiyə münasibətlərini hazırkı səviyyədə saxlayacaq. Ölkə başçılarının görüşündə digər diqqətçəkən məqam isə liderlərin əl-ələ, gülərək söhbət etmələri idi. Bunu həm də Azərbaycan Ordusunun son antiterror əməliyyatına Türkiyənin tam və birmənalı dəstəyinin görüntüsü və dünyaya mesaj kimi qiymətləndirmək olar”.

**T.Rzayev diqqətə çatdırıb ki, Prezident İlham Əliyev Konyada Fələstin Dövlətinin Baş naziri Məhəmməd Ştayyehi ilə də görüşüb:** ”Ümumiyyətlə, istər Şimali Kipr Prezidenti Ərsin Tatar, istərsə də Fələstin Dövlətinin Baş naziri Məhəmməd Ştayyehi keçirilən görüşlərin Türkiyə tərəfindən təşkil edildiyini demək olar. Xüsusilə, Ankara Bakının İsrail ilə əlaqələrini yaxşı bilir. Türkiyə ilə İsrail arasında münasibətlərin normallaşması prosesində rəsmi Bakının sərgilədiyi vasitəçilik və konstruktiv mövqeyin Fələstinlə də olması istənilir. Fələstin-İsrail münasibətləri son günlər yenidən gərginləşib və Azərbaycan iki ölkə arasında həm sülhün əldə edilməsi, həm də münasibətlərin normallaşmasında vasitəçi ölkə ola bilər. Rəsmi Bakının həm İsrail, həm də Fələstin ilə münasibətləri normaldır. Azərbaycanın münaqişə təcrübəsi və Qoşulmama Hərəkatının sədri olduğunu nəzərə alsaq, belə bir vasitəçilik missiyası uğurlu alına bilər”.

**İsmayıl Qocayev**

# Müharibə davam edəcək



## “Moskva BMT-yə və beynəlxalq prinsiplərə saymazyana yanaşırsa, hətta lağ-lağı edirsə, bunun səbəbi ABŞ və Avropa ölkələrindədir”

**Rusiya işğal etdiyi Zaporojye Atom Elektrik Stansiyasının (AES) Ukrayna tərəfindən atəşə tutulması ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının iclasının keçirilməsini tələb edib. Rusiyanın BMT-dəki daimi nümayəndəsinin birinci müavini Dmitri Polyanski informasiyanı təsdiqləyib.**

Qeyd edək ki, Zaporojye AES Ukraynanın Enerqodar şəhərində yerləşir, quraşdırılmış gücünə görə Avropanın ən böyük atom elektrik stansiyasıdır. Ukraynada müharibənin başlamasından 4 gün sonra - fevralın 28-də Rusiya Müdafiə Nazirliyi Zaporojye AES-in ələ keçirildiyini açıqlayıb. Buna baxmayaraq, stansiyanın rəhbərliyi Ukrayna operatorlarında qalır.

**AĞ Partiya sədrinin müavini Əhəd Məmmədli ”Şərq”ə bildirib ki, müasir dünyada hüquq, ədalət, məntiq yoxdur. Yeganə təsir vasitəsi güc mexanizmini işə salmaqdır. Analitik bildirib ki, BMT artıq protokol qaydalarını tətbiq edən quruma çevrilib:** ”Əvvəlcə onu deyim ki, Birləşmiş Millətlər Təşkilatını formal struktura çevirən ölkə ABŞ olub. Amerika 2001-ci ildən sonra İraqa, Əfqanıstana, Afrika ölkələrinə, Yaxın Şərqə hərbi müdaxilələr etməklə beynəlxalq hüququn artıq işləmədiyini, qlobal təşkilatların nüfuzdan düşdüyünü təsdiqlədi. Fransa və digər Avropa ölkələri də digər ölkələrə hərbi müdaxilələr ediblər. Yəni hansısa ölkənin beynəlxalq qurumlara müraciətləri əhəmiyyətini itirib. Çünki beynəlxalq hüququ da, qlobal təşkilatları da əhəmiyyətsiz qurumlara çevirənlər məhz Qərb ölkələri olub. Ukrayna ərazisini işğal edən, beynəlxalq qanunları kobud şəkildə pozan Rusiyanın isə BMT-yə müraciəti ironiyadır. Lakin bu gün Moskva BMT-yə və beynəlxalq prinsiplərə saymazyana yanaşırsa, hətta lağ-lağı edirsə, bunun səbəbi ABŞ və Avropa ölkələrindədir. Müharibə davam edəcək. Əslində Rusiya da bilir ki, BMT hansısa savaşı dayandırmaq gücündə deyil”.

**İsmayıl**

# Narkomaniya daha çox savadsızları "yeyir"

## Narkotacirlər hələ ki, pulun gücünə qalibdirlər



## “Ağ ölüm”ə qarşı mübarizə aparmaq üçün külli miqdarda vəsait ayrılmalıdır

**”Narkomaniya ilə bağlı hər tədbir, təlim və müzakirələrdə illərdir hər dəfə eyni sözlər, eyni mesajlar və əsas da eyni sosial adamlar iştirak edir”.**

Bu sözləri narkomaniya üzrə ekspert Emil Maqalov deyib.

Narkomaniya ilə bağlı bir dənə də olsun sosioloji tədqiqat olmadığını vurğulayan ekspert ”insanlar idmanla məşğul olanda narkomaniyaya aludə olma riski azalır” kimi fikirlər də mifdir: ”Bəli, idmanı hardasa asudə vaxtın təşkili kimi qiymətləndirmək olar. Amma düşünürəm ki, bizdə idman siyasətinin konsepsiyası yanlışdır. İdmanla intellektual səviyyə bir olmalıdır. Məsələn, Sovet dövründə orta məktəblərdə normal oxumayanları idmana buraxmırdılar. Yəni əsas risk qrupları asosial insanların olduğunu nəzərə alıb deyə və görə bilərik ki, narkotika istifadəçilərin çoxunun savadı azdır. Bunları araşdırıb təhlil edib, səciyyəvi qruplara uyğun iş aparılmalıdır.

Yəni narkomaniya ilə bağlı tədbirləri hər hansı bir fəal və öndə olan gənclərə keçməklə, gördüyümüz kimi müsbət nəticə, effekt yoxdur, hətta əksidir.

Narkotacirlərin hər yolla külli miqdarda ”pul qazanma” cəhdi bütün dünyada var və hələ ki, pulun gücünə onlar qalibdir. Ümumiyyətlə, mübarizə üçün külli miqdarda vəsait ayrılmalı, aidiyyəti işçilərin əmək haqları artırılmalı və həqiqətən işində məsuliyyətli olan insanlar bu işə cəlb olunmalıdır”.

**Şəymən Bayramova**

“Növbəti dövrlər üçün Azərbaycanda da qiymət artımı davam edəcək”



# Bəzi ərzaq mallarının qıtlığı gözlənilir

## 2023-cü il üçün beynəlxalq təşkilatların da xəbərdarlığı var

Azərbaycanda illik inflyasiya 13 faizə çatıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Məlumata görə, təkcə iyul ayında istehlak qiymətləri indeksi əvvəlki ayla müqayisədə 100,5 faiz, ötən ilin iyul ayına nisbətən 113,7 faiz olub. Ötən ay ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1 faiz, ötən ilin iyul ayına nisbətən 120,3 faiz təşkil edib.

Ayrı-ayrı ərzaq məhsullarından daha çox artım düyünün, qarabaşaq yarmasının, makaron məmulatlarının, kolbasa məmulatlarının, mal, qoyun və toyuq ətinin, qatılaşdırılmış şəkərli südün, xamanın, yumurtanın, bitki yağlarının, limonun, pomidorun, soğanın, sarımsağın, mərcinin, şəkər və şəkər tozunun, konfetlərin, qəhvənin, mineral suların, kola içkisinin, limonadın, pivənin, azalma isə əsasən təzə balığın, bananın, gavalının, əriyin, şaftalının, qarpızın, yemişin, xiyarın, kələmin, bibərin, badımcanın, göy lobyanın, kartofun, çuğundurun, yerkökünün qiymətlərində müşahidə olunub. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

**İqtisadçı-ekspert Rəşad Həsənov hazırkı inflyasiya təzyiqlərindən ”Şərq”ə danışaraq deyib ki, son iki həftədə neftin qiymətinin ucuzlaşması proseslərə təsir edib.** Ukrayna taxılının dünya bazarlarına çıxarılması nisbətən pozitiv meyilləri özündə əks etdirir. Buna baxmayaraq hələ də qiymət artımları davam edir. Bütün ölkələr üzrə qlobal səviyyədə, həmçinin, Azərbaycan üzrə istehsal qiymətləri indeksinə baxanda görürük ki, istehsal qiymətləri daha yüksək səviyyədə artıb. Hazırda həmin maya dəyərində baş verən artımı tam olaraq bazarda istehlak qiymətlərində görmək olmur.

Çünki dünya əhalisi pandemiyadan yeni çıxıb, iqtisadiyyat tam bərpa olunmayıb. Nəticədə alıcılıq gücü aşağı düşüb. Belə bir şəraitdə maya dəyərinin artmasından yaranmış xərci birmənalı şəkildə son satış qiymətlərinə ötürmək çətin olur. Bu da əlbəttə ki, növbəti dövrlərdə mütləq şəkildə istehlak qiymətlərində əks olunacaq, inflyasiya yaradan faktor kimi çıxış edəcək”.

İqtisadçı diqqətə çatdırıb ki, bütün bununla yanaşı xüsusilə də ərzaq təchizatı ilə bağlı ciddi narahatlıq hələ də qalır: ”Xüsusilə 2023-cü il üçün beynəlxalq təşkilatların da xəbərdarlığı var. Bir sıra ərzaq məhsulları üzrə ciddi qıtlığın olması gözlənilir.

Ölkəmiz əsas idxalçı ölkələrdən biridir. Belə bir şəraitdə təbii ki, növbəti dövrlər üçün Azərbaycanda da qiymət artımı davam edəcək”.

**Günəş Mərd**

**İsmayıl Qocayev**

# Qərb prosesdə önə çıxıb

## Ona görə də növbəti təşəbbüskar kimi Rusiya aktivlik göstərir

**Azərbaycanın öz ərazilərində erməni separatçılara qarşı keçirdiyi antiterror əməliyyatından sonra Bakı-İrəvan arasındakı təmasların yüksək səviyyəli danışıqlarla yekunlaşması üçün proses sürətlənib.**

Qarabağdakı və Azərbaycan-Ermənistan sərhədindəki insidentlərin silahlı toqquşma ilə müşayiət edilməsi danışıqlar masasına qoyulacaq mövzuları gündəmə gətirir. Budəfəki müzakirələr Azərbaycanın əldə etdiyi və əvvəlki üstünlüklərdən nisbətən fərqli tutulan bir konsepsiyadır. Prezident İlham Əliyev dəfələrlə tarixi Azərbaycan torpaqlarının Ermənistana verildiyini qeyd edib və buna dair tarixdəki hadisələrdən xeyli misallar gətirib.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə bildirib ki, proseslərə daha geniş gözlə baxası olsaq, deyə bilərik ki, Azərbaycan delimitasiya prosesi çərçivəsində tarixi ərazilərini də yaddan çıxarmayacaq.** Ekspertin fikrincə, Azərbaycan delimitasiyanın istiqamətini genişlətmək əzmini nümayiş etdirir. Bunu Bakının bir yox, bir neçə xəritəyə konsentrasiya olmasında görmək olar: ”Bakı tarixi faktı hüquqi əsasa çevirmək yolunda böyük bir məsafə qət edib. Dünya nizamının silkələnməsi fonunda Azərbaycanın strateji müdafiə ehtiyaclarını qarşılaması üçün daha böyük planlarının olması normaldır. Bakı qaçqınların tarixi Azərbaycan ərazilərinə qayıdışını təmin etməyi özünün prioritetləri siyahısından çıxarmayıb. Buna görə də danışıqlarda bu məsələnin ortaya qoyulmasını şərtləndirən amillərdən bəhs ediləcəyi məntiqli görünür. Azərbaycanın sərhədlərin delimitasiyasına dair mövqeyini Türkiyə strateji müttəfiqliklə, Rusiya və Qərb isə strateji tərəfdaşlıq prinsipi ilə dəstəkləyir. Mübahisəli görünən məqamlar əsasən maraq toqquşmaları ilə əlaqəlidir. Qlobal səhnədəki ən güclü aktorların əsas maraq toqquşması Cənubi Qafqazda yaranacaq dəhlizdə (Zəngəzur dəhlizi) kimin dominant mövqe qazanması kriteriyalarına söykənir”.



**A.Kərimovun fikrincə, Rusiya regionda hərbi-siyasi varlığını iqtisadi layihələrə inteqrasiya etməklə daha üstün mövqelərə çıxmaq istəyir:** ”ABŞ və Böyük Britaniya isə regionda siyasi təsir vasitələrini çoxaldır və iqtisadi-enerji platformalarında payını artırır. Vaşinqton Zəngəzur dəhlizini ən çox enerji təhlükəsizliyi baxımından nəzərdən keçirir. ABŞ-ın hərbi iştirakına gəlincə, hələlik, Vaşinqton bu regionda Rusiya ilə kəllə-kəlləyə gəlmək meylindən qaçır. Avropa İttifaqı daha çox iqtisadi maraqlarla bölgəyə daxil olur və o, böyük siyasi ambisiyalardan uzaqdır. Çin isə Zəngəzur dəhlizini iqtisadi ekspansiya siyasətinin yeni elementi kimi dəyərləndirir. Azərbaycanla Türkiyə birlikdə nəyin aldadıcı, nəyin real, nəyin absurd olduğunu müəyyən edir. Qlobal maraqların regional təhlükəsizliyi təhdid edə biləcək sərhədlərini strateji formada analizini aparır. Qarabağda Azərbaycanın keçirdiyi ”Qisas” antiterror əməliyyatı qlobal aləmin nəbzinin yoxlanılması baxımından da önəm daşıyırdı və Bakı ilə Ankara atan nəbzləri diqqətlə incələyir. Azərbaycanla Ermənistan arasında baş tutacaq hər hansı səviyyəli görüşü geniş rakursda yuxarıda qeyd etdiyimiz məsələlər kontekstində qiymətləndirmək lazımdır. Görüşün təşkil edilməsi üçün də Rusiya ilə Qərb arasında çəkişmə gedir, çünki əldə ediləcək razılaşmalar təşəbbüskarın da rolunu artırar. Rusiya tərəfi ötən ilin noyabrından sonra Azərbaycan və Ermənistan liderləri arasında görüş təşkil etməyib və Qərb prosesdə önə çıxıb. Ona görə də növbəti təşəbbüskar kimi Rusiya aktivlik göstərir”.

# Azərbaycan Türkiyənin "Mavi Vətən" doktrinasına dəstək verir

## Aqşin Kərimov: "Bakı-Ankara tandemi Türk Dövlətləri Təşkilatının sıralarını genişlətmək üçün Şimali Kiprin də bu təsisatda yer almasına cəhdlər göstərir"



**Azərbaycan Prezidenti İlham Əliyev avqustun 9-da Konyada türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla yanaşı bir sıra görüşlər keçirib. İlham Əliyevin Türkiyəyə budəfəki səfərində diqqətləri üzərinə cəmləyən bir görüş də baş tutub. İ.Əliyev Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatarı qəbul edib. Daha sonra isə onların üçtərəfli görüşü keçirilib.**

*Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə açıqlamasında bildirib ki, Şimali Kipr amilinin Əliyev-Ərdoğan danışıqlarında həmişə masa üzərində olduğu fikrini səsləndirə bilərik:*

"Hərçənd ki, bununla bağlı açıq-aşkar ictimailəşən rəsmi məlumatlar azlıq təşkil edib. Dünya nizamının altına bombalar düzülməsindən sonra Türkiyənin gücünü tükətmək və manevrlərini məhdudlaşdırmaq üçün onun böyük oyunlara doğru sürüklənməsi cəhdləri siyasi üfüqlərdə görünür. Ankaraya göstərilən təzyiqlərdən biri onun ərazi bütövlüyünə, qarant durduğu subyektlərə, dövlətlərə təhdid yaratmaqdır. Adalarla bağlı Türkiyə ilə Yunanıstan arasında gərginliyin pik həddə çatması həmin planların tərkib hissəsidir.

Rəsmi Ankaranın suverenliyi əleyhinə praktiki təhdidlər ortaya çıxarsa, qardaş ölkənin yanında dura biləcək və ona siyasi dayaqla yanaşı, əməli dəstək göstərə bilən ölkə Azərbaycandır. Bu, Şuşa Bəyannaməsindən sonra ikitərəfli münasibətlərdə bərkiyən strateji müttəfiqliyin doğurduğu qarşılıqlı müdafiə refleksidir.

Yəni Ankara ilə Bakı Azərbaycan-Ermənistan münasibətlərinə dair mövqelərini Şimali Kipr mövzusu ilə bərabər şəkildə inkişaf etdirir. Azərbaycan 44 günlük Vətən müharibəsinə qədər Şimali Kipr Türk Respublikası ilə təmaslarda son dərəcə ehtiyatlı davranırdı. Bu tədbirlilik onsuz da sürüşkən mövqeyi olan Yunanıstanın Qarabağ separatçılarına "müstəqillik kartı" vermək riski ilə əlaqəli idi. Lakin Azərbaycanın Cənubi Qafqazda bərqərar etdiyi yeni reallıqdan sonra vəziyyət dəyişib.

Eyni zamanda Bakının Şimali Kiprlə əlaqələrinin dərinləşməsi istiqamətində mühüm addımlar atılır. Hərçənd ki, ölkəmiz Şimali Kipri müstəqil dövlət kimi hələ tanımayıb, ancaq proseslərin rəngi açıldığından Azərbaycan riskləri hesablayaraq, həmin məsələni özünün xarici siyasət prioritetlərinə daxil edir".

**Analitik həmçinin əlavə edib ki, Azərbaycan Türkiyənin dəniz yurisdiksiyalarını özündə əks etdirən "Mavi Vətən" doktrinasının praktiki dəstəkçisinə çevrilir:** "Bu həm də regional təhlükəsizliyin bətninə təhlükəli toxum əkilməməsi üçün vacibdir. Üstəgəl, gələcəkdə enerji layihələrinin diversifikasiyası üçün münbit zəmindən ötrü lazımdır. Əsasən, Şərqi Aralıq dənizi hövzəsindəki enerji resurslarının bolluğuna dair təxminlər iki qardaş ölkənin perspektiv iqtisadi layihələrində yeni səhifələrin açılmasını stimullaşdırır.

Şimali Kipr məsələsi Türkiyənin ümumi milli təhlükəsizlik konsepsiyasında qırmızı xətlə keçir. Həmçinin rəsmi Ankara buranın müstəqilliyinin tanınması üçün səyləri artırır.

Azərbaycan hələlik belə bir qərar verməsə də, həmin səylərə həlledici dəstək göstərir. Bakı-Ankara tandemi Türk Dövlətləri Təşkilatının sıralarını genişlətmək üçün Şimali Kiprin də bu təsisatda yer almasına cəhdlər göstərir. Lakin müstəqillik faktoru hələ də maneə olaraq qalmaqdadır.

R.T.Ərdoğanla İ.Əliyevin budəfəki görüşü həm Şimali Kipr mövzusunun, həm də Qarabağdakı "Qisas" antiterror əməliyyatından sonrakı nəticələr haqqında birbaşa fikir mübadiləsi aparmaq baxımından əhəmiyyətli idi".

**Sücayət Mehti**



# Avropaya Azərbaycandan qaz ixracı artıb

## Vüqar Bayramov: "Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin formalaşmasında rolu güclənməkdədir"

**Azərbaycanın Avropaya mavi qaz ixracatı bu ilin ilk 7 ayında 61.5 faiz artaraq 4 milyard kub metrdən 6.5 milyard kubmetrə çatıb.**

Bu müddətdə xaricə qaz satışı 12,9 milyard kubmetr olub. Ümumi ixracatda 24 faiz artım qeydə alınıb. Energetika Nazirliyinin məlumatına görə, 7 ay ərzində Türkiyəyə 4,8 milyard kubmetr, Gürcüstana 1,6 milyard kubmetr satılıb. Qeyd edək ki, bu müddətdə Türkiyəyə TANAP-la 3,2 milyard kubmetrə yaxın qaz nəql olunub. Eyni zamanda ölkədə mavi qaz hasilatı da 13.3 faiz artıb. Bu ilin ilk 7 ayında Azərbaycanda 27,3 milyard kubmetr təbii qaz hasil edilib. Ötən ilin müvafiq dövrünə nisbətən bu 3,2 milyard kubmetr artım deməkdir.

**Millət vəkili Vüqar Bayramov deyib ki, bu ilin yanvar-iyul ayları üzrə rəqəmlər göstərir ki, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin formalaşmasında rolu güclənməkdədir.** Deputatın sözlərinə görə, son bir ildə Azərbaycan Avropaya 13,5 milyard kub metr mavi qaz nəql edib: "Bütövlükdə Azərbaycan tərəfinin Avropaya 2022-ci ildə 10 milyard kub metrdən artıq mavi qazın nəql edilməsi nəzərdə tutulur. Yeni memoranduma əsasən, Azərbaycan Avropaya nəql etdiyi mavi qazı 2026-cı ilədək iki dəfə artırmalıdır. Azərbaycan mavi qazı iyulun 1-dən etibarən Bolqarıstana nəql edilib. İl ərzində Bolqarıstana 1,5 milyard kub metr mavi qazın nəql edilməsi nəzərdə tutulur. Həmin daxili şəbəkənin ötürülməsi qabiliyyəti 5,5 milyard kub metrə qədər yüksələcək. Avropa üçün Azərbaycan yeni alternativ mənbədir. Mərkəzi, Şərqi Avropa öz enerji təhlükəsizliyini daha çox Azərbaycanın mavi qaz hesabına gücləndirmək niyyətindədir. Bu baxımdan Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verə bilər".

**İsmayıl**



# Xankəndidə Azərbaycanın ayaq səsləri eşidilir

## Ermənistan dərk etməlidir ki, siyasi cığallıqları əhəmiyyətsizdir

**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Türkiyədə səfərdə olarkən Ermənistan tərəfinin addımlarından, son günlər yaşanan gərgin proseslərdən danışıb. Nazir vurğulayıb ki, müxtəlif bəhanələrlə Ermənistan-Azərbaycan normallaşma prosesinə xələl gətirmək düzgün yanaşma deyil. C.Bayramovun sözlərinə görə, bu, Ermənistanın maraqlarına da cavab vermir:**

"Ermənistanın, nəhayət, bunu anlayacağına ümid edirik. Bu məsələlər zaman-zaman müzakirə olunur. Elə məqamlar var ki, onlar ictimailəşdirilmir. Amma Azərbaycanın mövqeyi Rusiya və Avropa İttifaqının vasitəçiliyi ilə əldə olunan razılaşmaların tam icrasından ibarətdir. Biz həm də işğala son qoyulduqdan sonra sülh müqaviləsinə başlamağı təklif etmişdik. Bunu açıq şəkildə bəyan etməklə öz mövqeyimizi ortaya qoymuşduq. Azərbaycanın çağırışı bir il müddətində cavabsız qaldı. 2022-ci ilin əvvəlindən Azərbaycan gələcək sülh sazişi ilə bağlı təməl prinsiplərini ortaya qoydu. Sonra isə bunları Ermənistana təklif etdik. Həmin sənəddə göstərilən bütün maddələr beynəlxalq hüquqa, dövlətlərin ərazi bütövlüyünə uyğundur". C.Bayramov vurğulayıb ki, rəsmi İrəvan bu təklifləri ritorik olaraq qəbul etdiyini bildirib: "Lakin praktik olaraq ləngimələr, sülh müqaviləsi üzrə işçi qrupun yaradılmasından yayınmalar var. Biz bütün öhdəliklərimizə hörmətlə yanaşırıq, qarşı tərəfdən də bunu gözləyirik".

XİN rəhbəri bildirib ki, Ermənistan istəsə də, istəməsə də Naxçıvanla əlaqələr qurulacaq: "Araz çayı üzərində ilk körpünün tikintisinə başlanılıb. Yəni bizim Azərbaycanın digər ərazilərindən Naxçıvana keçmək üçün alternativimiz var. Demək istədiyim odur ki, Ermənistanın prosesi ləngitməsinə baxmayaraq, bu layihə mütləq icra olunacaq. Sadəcə regional əməkdaşlıqdan kənarda qalmamaq üçün indi Ermənistana növbəti şans verilib. İrəvan düzgün qərar qəbul etməsə, ən böyük zərər özlərinə dəyəcək".

**Ceyhun Bayramovun mesajlarını "Şərq"ə təhlil edən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, Ankarada keçirilən 13-cü Səfirlər konfransı Azərbaycan üçün mühüm tribuna oldu. Professor vurğulayıb ki, XİN rəhbəri Azərbaycan dövlətinin mövqeyini bir daha bəyan etdi:** "Dövlət başçısı İlham Əliyev də dəfələrlə vurğulayıb ki, Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi açılacaq. Ceyhun Bayramov ölkə rəhbərinin mövqeyini yenidən gündəmə gətirdi və Ermənistana növbəti çağırışını etdi. Paralel olaraq Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan və Xarici işlər naziri Mövlud Çavuşoğlu da Azərbaycanın tək olmadığını vurğuladılar. Eyni zamanda İrəvana təxribatlarla bağlı xəbərdarlıq edildi. Zəngəzur dəhlizi bu və ya digər formada işə düşəcək. Azərbaycanla qonşu İranla da memorandum imzalayıb. Yəni rəsmi Bakının alternativ layihəsi də var. Zəngəzur dəhlizi ümumilikdə region ölkələrinin, Rusiyanın da maraqlarına cavab verir. Avqustun 5-də Ərdoğan-Putin görüşündən sonra Kreml dəhlizin açılmasına tərəfdar olduğunu bəyan etdi. Ermənistan dərk etməlidir ki, siyasi cığallıqları əhəmiyyətsizdir. Ermənistan Cənubi Qafqazın cığal uşağı statusunu çoxdan itirib".

C.Nuriyev vurğulayıb ki, Azərbaycanın Xankəndi istiqamətindəki addımlarının səsi eşidilir: "Separatçıların Laçına, Zabux kəndinə gedərək oradakı ermənilərə çıxmağı tapşırdığı, onlara avqustun 25-dək vaxt verildiyini deyiblər. Görünən odur ki, Paşinyan hökuməti ağıllanmağa başlayıb və bu yöndə addımlar atmaq istəyir. Lakin Ermənistanın siyasətinə, xüsusən Zəngəzur dəhlizi ilə bağlı məsələyə Moskva ilə yanaşı, İran da müdaxilə edir. Meğri yolunun bağlanması İran-Ermənistan narkotrafikinin qarşısını aldı. Bu da Tehranı qəzəbləndirdi. Hazırda Rusiyanın başı Ukrayna ilə müharibəyə qarışıb. Fransa kimi kənar güclər də yoxdur. Sadəcə, ABŞ-dakı erməni diasporası hay-küy salır, Azərbaycanı ittiham edirlər".

**İsmayıl Qocayev**

# "Azərbaycanda informasiya mühiti çirklənib"

## Rauf Arifoğlu: "Sosial platformaya inteqrasiya olunmaq lazımdır"




**Bu gün Baş Prokurorluğun təşkilatçılığı ilə "Media azadlığı və sosial şəbəkələrin güclənən təsiri şəraitində cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunması" mövzusunda konfrans keçirilib.**

Müşavirədə baş prokuror Kamran Əliyev, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Mətbuat Şurasının sədri Əflatun Amaşov, həmçinin nüfuzlu media qurumlarının rəhbərləri, ali təhsil müəssisələri və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər. İclasda çıxış edən Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli bildirib ki, sosial şəbəkələrin tənzimlənməsi üçün müəyyən tədbirlər görülməlidir: "Dünyanın aparıcı dövlətləri sosial şəbəkələri tənzimləmək üçün qanunlar qəbul edirlər. Elə mövzular var ki, onların tənzimlənməsi üçün qanunlar hazırlanır. Dünyada sosial şəbəkələr güc mərkəzi kimi çıxış edirlər. Bunun nizama salınması üçün müəyyən qabaqlayıcı işlər görülməlidir. Ayrı-ayrı dövlətlər prosesi həyata keçirir. Məsələn, Fransada çoxsaylı məsələlər var ki, onlarla bağlı nifrət çıxışının qarşısının alınması üçün qanun hazırlanıb. Hazırda Almaniya, Polşa, Fransa və digər ölkələrdə bu cür qanunlar üzrə işlər tamamlanıb. Sosial şəbəkəni tənzimləyək,- deyə bir məsələ yoxdur. Ancaq sosial platformalarda uşaqların, müəllif və digər hüquqların qorunmasına zərurət yaranıb".

**"Yeni Müsavat" Media Qrupunun təsisçisi və rəhbəri Rauf Arifoğlu "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycanda informasiya mühiti çirklənib və adına "reket" mediası dediyimiz mütəşəkkil cinayətkar dəstə sosial mediaya tam halında transfer olunub:** "Xüsusən də yutub və feysbuk platformalarına axın ediblər. Bu da ölkədə informasiya çirkliliyi və təhlükəsizliyi dərəcəsinə, səviyyəsinə təsir göstərir. Azərbaycan jurnalistikasında təxminən 20 mindən yuxarı vəsiqə daşıyan "reket" mövcuddur. Onlara heç kim heç nə demir. Birincisi, təşkilatçıların vasitəçiliyi ilə Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində media azadlığına dair tədbirin keçirilməsi yanlışdır. Bundan başqa, ardıcıllıq düzgün deyildi. İclas Azərbaycan Mətbuat Şurasının, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin təşəbbüsü ilə keçirilməlidir. Prokurorluq, digər məhkəmə və hüquq-mühafizə orqanları isə baş tutacaq tədbirə dəvət edilməlidir. Yəni ölkənin media münasibətlərini tənzimləyən bu iki qurum kənarda qalıb, məhkəmə və hüquq-mühafizə orqanlarının ev sahibliyi ilə konfrans keçirilir. Əlbəttə ki, bütün bunların hamısı əminəm ki, xoş niyyətdən doğur. Media nümayəndələrinin məsələni qaldırdığı kimi, informasiya mühitinin çirkabdan təmizlənməsi üçün çalışırlar".

Baş yazar diqqətə çatdırıb ki, Azərbaycan informasiya müharibəsinə məruz qalan bir dövlətdir: "Sosial şəbəkələrdəki açıq qapıdan istifadə edib, cəmiyyətə təsir edən yad ünsürlərə qarşı mübarizə aparmağa səy göstərmək arzuolunan məramdır. Amma axı proseslərin ardıcıllığı, protokol qaydaları var. Bir neçə dəfə mövzu üzrə təşəbbüskarlıq və aparıcılığın media təsisatlarına verilməsi istiqamətində məsələ ilə çıxış etdim. Prokurorluq, Dövlət Təhlükəsizlik Xidməti, Daxili İşlər Nazirliyi, Dövlər Sərhəd Xidməti, Fövqəladə Hallar Nazirliyi və digər güc strukturları çağırışlarımıza sadəcə cavab və dəstək verməlidirlər. Artıq sosial media dünyanın gücü, əsas hakimiyyətidir. Dünya çapında bir səlahiyyətə malik qüvvəni dövlətin cinayət məcəlləsi ilə məhdudlaşdırmaq qeyri-mümkündür. Sosial platformaya inteqrasiya olunmaq lazımdır. Ona qarşı müharibə və mübarizə aparmaq imkansız və səhvdir.

Ölkənin Kütləvi İnformasiya Vasitələrinin çərçivələrini genişləndirmək, tənqid dəhlizini böyütmək lazımdır. Azərbaycan mətbuatının nəhəng imzaları, qələmləri var.

Prinsipcə, prokurorluğun təşəbbüsü altında xeyirxah addım yatır.

**Sücayət Mehti**

**Baş Prokurorluğun təşkilatçılığı ilə "Media azadlığı və sosial şəbəkələrin güclənən təsiri şəraitində cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunması" mövzusunda konfrans keçirilib.**



Azərbaycanda informasiya mühitinin sağlamlaşdırılması, qeyri-dəqiq və mənbəyi şübhə doğuran məlumatların tirajlanmasının qarşısının alınması məqsədilə təşkil edilmiş konfransda Baş prokuror Kamran Əliyev, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Mətbuat Şurasının sədri Əflatun Amaşov, eləcə də nüfuzlu media qurumlarının rəhbərləri, ali təhsil müəssisələri və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər. Toplantı Azərbaycanın Dövlət Himninin səsləndirilməsi və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

# "Müzakirələr səmimi atmosferdə keçirildi"

## Elçin Mirzəbəyli: "Prokurorluqla jurnalistlərin əlaqəsi media mühitini sağlamlaşdırmağa şərait yaradır"

Daha sonra Baş prokuror Kamran Əliyev giriş nitqi ilə çıxış edib.

O bildirib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra medianın inkişafı üçün bütün şərait yaradılıb. Media inkişaf etmədən cəmiyyətin düzgün tərəqqisi mümkün deyil və ona görə də ulu öndər Heydər Əliyev media ilə bağlı bütün institutların inkişafına böyük diqqət yetirib.

Ölkənin Baş prokuroru K.Əliyevdən sonra Mndianın İnkişaf Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Mətbuat Şurasının sədri Əflatun Amaşov, nüfuzlu media qurumlarının rəhbərləri çıxış ediblər.

Konfrans zamanı son dövrlər yol verilən qanun pozuntularına görə tətbiq olunan prokuror təsir tədbiri aktlarının tətbiqi əsasları, nəticələri barədə bəhs edilib, jurnalistlərin peşə davranışı qaydalarının tətbiqində mövcud problemlərdən söz açılıb. İşgüzar tədbirdə səmərəli fikir mübadiləsi aparılıb, təkliflər səsləndirilib, bu məzmunlu tədbirlərin düzgün informasiya mübadiləsində mühüm irəliləyişlərə səbəb olacağı qeyd edilib.

**Konfransı "Şərq"ə dəyərləndirən "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli bildirib ki, prokurorluqla jurnalistlərin əlaqəsi media mühitini sağlamlaşdırmağa şərait yaradır:** "Baş Prokurorluq ölkə qanunvericiliyinin icrasına və həyata keçirilməsinə görə cavabdehlik daşıyan əsas qurumdur. Həmçinin həm söz və fikir azadlığının qorunmasını, həm də söz və fikir azadlığına xələl gətirən və yaxud bu vəziyyətdən neqativ istifadə hallarına qarşı adekvat tədbirlər həyata keçirən bir təsisatdır.

Bu aspektdən media ilə prokurorluq arasında əlaqələrin qurulması normal prosesdir. Əlaqələr indiki şəkildə səmimi atmosferdə və şəffaf müstəvidə keçirilsə, bunu yalnız alqışlamaq olar.

Bugünkü tədbirə müsbət yanaşıram və hesab edirəm ki, proses davamlı olacaq.

Biz həm mediada, həm də sosial şəbəkələrdə mövcud olan neqativ hallara qarşı qanunvericilik çərçivəsində birgə tədbirlər həyata keçirməyi və media mühitini sağlamlaşdırmağı bacaracağıq".

**Nihat Müzəffər**

**Prezident İlham Əliyev Türkiyədə səfərdə olarkən Şimali Kipr Türk Respublikasının rəhbəri Ersin Tatarı qəbul edib. Söhbət zamanı türk dünyası xalqlarının bir-biri ilə tarixi bağlılığına söykənən əlaqələrin humanitar, mədəniyyət, təhsil, idman sahələrində genişlənməsinin əhəmiyyətinə toxunulub.**

Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar görüşlə bağlı tviterdə qısa açıqlama verib: ”Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə gəldiyim Konyada Azərbaycan Prezidenti İlham Əliyevlə səmimi görüşümüz oldu. Görüş zamanı əlaqələrimizin inkişafını müzakirə etdik”. Məlumat üçün bildirək ki, Şimali Kipr Türk Respublikası sadəcə



# "O günə çox qalmayıb"

## Elman Məmmədov: “Vaxtı çatanda Şimali Kipri tanıyan ikinci dövlət Azərbaycan olacaq”



Türkiyə tərəfindən rəsmən tanınır. Ankara adadakı problemi iki dövlətin qurulması və rəsmən tanınması şəklində görürdü. Əvvəl Türkiyənin mövqeyi bu idi ki, ortaq bir dövlət yaradılsın və idarəetmədə türklərə siyasi hüquqlar verilsin. 1959-1960-cı illərdə imzalanan Sürix və London müqaviləsi bunun hüquqi əsasını təşkil edirdi. Lakin adanın yunanlar yaşayan tərəfi bununla razılaşmadı. Nəticədə Türkiyə də rumların təktərəfli idarəetməsindən imtina etdi. Təəssüf doğuran budur ki, yunan Kiprini ağuşuna alan Avropa Şimali Kiprə qarşı ayrı-seçkilik nümayiş etdirməkdə davam edir. İllər boyu Azərbaycanın da Şimali Kipri tanıması məsələsi müzakirə mövzusu olub. Ələlxüsus, torpaqlarımızın işğaldan azad olunmasından və Qarabağ münaqişəsinin bitməsindən sonra tanınma məsələsi yenidən gündəmə gəlib. Rəsmi Bakının Şimali Kipri tanıması yönündə tələblər irəli sürülüb. Şimali Kiprin tanınması üçün Azərbaycanın önündə artıq əngəl qalmadığı vurğulanıb. Əslində Şimali Kiprlə Azərbaycan arasında təhsil və ictimai sahələrdə müəyyən əlaqələr var. Hətta Şimali Kiprin Azərbaycanda nümayəndəliyi də mövcuddur. Eyni zamanda millət vəkillərimizin adaya səfərləri təşkil olunub. Lakin Bakının rəsmi mövqeyi üçün davamlı və ətraflı müzakirələrə ehtiyac olduğu da söylənilir. Bir qisim isə hesab edir ki, Qarabağ məsələsinin tamamilə yekunlaşmasını gözləmək daha məqsədəuyğundur.

**Millət vəkili Elman Məmmədov ”Şərq”ə bildirib ki, Azərbaycan Şimali Kipr Türk Respublikasını rəsmən tanıyacaq. Deputatın sözlərinə görə, bu tanınma gec-tez mütləq olacaq:** ”Hər kəsin bildiyi müəyyən məsələlərə görə bir qədər zamana ehtiyacımız var. Vaxtı çatanda Şimali Kipri tanıyan ikinci dövlət Azərbaycan olacaq. Şimali Kiprin Azərbaycanda nümayəndəliyi fəaliyyət göstərir və tərəflərin müəyyən sahələrdə əlaqələri yüksək səviyyədədir. Azərbaycanın millət vəkilləri Şimali Kipr Türk Respublikasının yaranmasının ildönümləri ilə bağlı keçirilən tədbirlərdə iştirak edirlər. Əlaqələrimizi mümkün qədər genişləndirməyə çalışırıq. Konyada cənab Prezidentin Şimali Kipr rəhbəri ilə səmimi görüşü, əlaqələrin inkişafının müzakirə olunması yeni proseslərdən xəbər verir. Biz Şimali Kipri tək qoymayacağıq, hər zaman onların yanında duracağıq. Necə ki, türk qardaşlarımız 44 günlük müharibədə bizi tək buraxmadı. Şimali Kipr bizimlə həmrəy olduğunu dəfələrlə vurğulayıb. Azərbaycan da əlindən gələni əsirgəməyəcək. İnşallah, yaxın vaxtlarda rəsmi tanınmanın şahidi olacağıq. O günə çox qalmayıb”.

Parlament üzvü təəssüflə vurğulayıb ki, dünyanın aparıcı dövlətləri, BMT və digər beynəlxalq qurumlar Şimali Kiprə münasibətdə çox ədalətsiz mövqe sərgiləyirlər. Dünyanın haqq-ədalətlə, hüquqi prinsiplərlə idarə olunmadığını ən yaxşı bilən bizik. Qlobal aləm güclə, zorla idarə olunur. Şübhə yox ki, Türkiyə və türk-islam dünyası gücləndikcə, öz şərtlərini diktə etməyə başladıqca, Şimali Kiprin tanınması ilə nəticələnəcək. Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan Konyada keçirilən konfransda söylədi ki, ”meydanda gücü olmayanın masada sözü keçmir”.

**İsmayıl Qocayev**

# İlkin hərbi qeydiyyata alınanlar narkoloji müayinədən keçəcək

## “Bu dəyişikliyin zəruriliyi tək xidmətə çağırılanlara aid deyil”

**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ehtiyatında olan və ilkin hərbi qeydiyyata alınan vətəndaş xəstəliyin diaqnozunun dəqiqləşdirilməsi üçün ambulator və ya stasionar tibbi müayinə ilə yanaşı, icbari narkoloji müayinəyə göndəriləcək.**



**Azad İsazadə:** “Orduda da xidmət edən hərbçilər arasında bu kimi hallara bulaşmış şəxslər ola bilər”

Bu, Nazirlər Kabinetinin müvafiq qərarlarına edilən dəyişiklikdə əksini tapıb.

Qərara əsasən, hərbi xidmətə (orqanlarda xidmətə) könüllü daxil olan vətəndaş xəstəliyin diaqnozunun dəqiqləşdirilməsi üçün icbari narkoloji müayinəyə göndərilə bilər. Eyni zamanda kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin sağlamlığının yoxlanması qaydasına kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə müvafiq qanuna uyğun olaraq icbari narkoloji müayinədən keçmələri ilə bağlı müddəa əlavə edilib.

Ekspertlərin fikrincə, əgər mülki həyatda biz bunun qarşısını ala bilmiriksə, hansısa yolla orduya keçməsinin də qarşısını almalıyıq. Bunun tam sıfırlanması mümkün olmasa da, çağırışçıların 80-90 faizini bu aktla sığortalamaq olacaq. Həm də çağırışçılara ilkin mərhələdə gözəl mesaj olacaq ki, mülki həyatda narkotikə bulaşacaqsınızsa, bilin ki, qarşınıza belə problem çıxa bilər.

**Dəyişiklikləri ”Şərq”ə şərh edən hərbi ekspert Azad İsazadə deyib ki, Azərbaycanda belə bir təcrübə var. Onun sözlərinə görə, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları ildə bir dəfə narkoloji müayinədən keçirilir.** Müayinə zamanı da bir neçə nəfərin sidiyində narkotik maddə elementləri çıxdığına görə vəzifədən azad edilir. İctimai nəqliyyatın sürücülərinin də il ərzində narkotik maddə istifadəçisi olub-olmadığını müəyyənləşdirmək üçün test edirlər.

Sözügedən dəyişiklikləri müsbət dəyərləndirən ekspert bu ideyanın Azərbaycan Ordusu və ümumilikdə ölkəmiz haqqında mənfi imic yaradacağını iddia edən şəxslərlə razılaşmadığını deyib: ”Bu cür müayinələrin aparılması baş verə biləcək hansısa təhlükənin də qarşısının alınmasında mühüm rol oynaya bilər. Narkotik maddə aludəçisinin silah daşıması qəbuledilməzdir”.

Qərb ölkələrində hərbçilərin icbari psixoloji müayinədən keçirildiyini xatırladan. *A.İsazadə deyib ki, psixoloji durumu yerində olmayan insanın orduda xidmət etməsi də arzuolunan deyil:* ”Səhv etmirəmsə, ABŞ-da psixoloji vəziyyəti yerində olmayan bir zabit affekt vəziyyətində zabit yoldaşlarını güllələmişdi. Bu dəyişikliyin zəruriliyi tək xidmətə çağırılanlara aid deyil. Orduda da xidmət edən hərbçilər arasında bu kimi hallara bulaşmış şəxslər ola bilər. Ona görə ordunun içərisində də tibbi müayinənin keçirilməsində fayda var. Çünki hərbçilər hər zaman mülki əhali ilə təmasdadırlar və qarşılarına narkotikə bulaşma məsələləri çıxa bilər və daimi heyətdən də kimsə buna bulaşa bilər. Ona görə də bu qanunun qəbulu zamanın tələbidir”.

**Şəymən**

# "Qarabağ öz sırasında güclü komandadır"

## Ağa Dadaşzadə: “Köhlən Atlar artıq Avropa liqasının qrup mərhələsini qarantiləyib”

**Dünən ”Qarabağ” UEFA Çempionlar Liqasının üçüncü təsnifat mərhələsində cavab oyununa çıxıb. ”Qarabağ”ın rəqibi Macarıstan çempionu ”Ferentsvaroş” klubu olub. Budapeştdəki ”Groupama Arena”da oynanılan matç Azərbaycan çempionunun 3:1 hesablı qələbəsi ilə yekunlaşıb.**



Beləliklə, üçüncü təsnifat mərhələsinin ilk qarşılaşmasında Bakıda Macarıstanın çempionu ilə 1:1 hesablı heç-heçə edən Qurban Qurbanovun yetirmələri Budapeştdə rəqibinə qalib gəlib və iki oyunun nəticəsinə görə növbəti mərhələyə yüksəlib. Azərbaycan təmsilçisinin növbəti - pley-off mərhələsindəki rəqibi Moldovanın ”Şerif” komandasından 2:1 hesabı ilə üstün olan Çexiyanın ”Viktoriya” komandası olacaq. Bu cütün qalibi isə Çempionlar Liqasının qrup mərhələsində oynayacaq.

**Qurban Qurbanovun Avropasayağı komanda qurduğunu deyən idman jurnalisti Ağa Dadaşzadə ”Şərq”ə bildirib ki, ”Qarabağ” klubu öz sırasında ən güclü komandadır:** ”Ötən gün ”Qarabağ” möhtəşəm qələbə qazandı. Matçdan öncə şərh vermək çətin idi. Hər iki klub başabaş komandadır.

Nəzərə alsaq ki, Bakıda 1:1 bərabərlik olmuşdu. Mən Çercesova sual verdim ki, ”Qarabağ”ın 4 əsas heyət oyunçusu oyunda deyildi.

Lakin Macarıstanda onlar meydanda olacaq. O isə cavabında dedi ki, bunu oyun zamanı görəcəyik. Oyundan sonra Çerçesov boynuna aldı ki, artıq müzakirə ediləsi heç nə yoxdur. ”Qarabağ” dünənki matçda həm tapıntıları, həm də sərgilədiyi futbolla uğur qazandı.

Bu oyun ”Viktoriya”ya bir növ siqnal olacaq ki, Ağdam təmsilçisi sıradan klub deyil. Köhlən Atlar artıq Avropa liqasının qrup mərhələsini qarantiləyib.

Bü cür oyunla Avro Liqanın qrupundan çıxmaq heç də çətin olmayacaq. Lakin onlar Avropa Liqasının qrupu ilə kifayətlənməyərək UEFA Çempionlar Liqasının qrupunu adlayacaq. Q.Qurbanovun yetirmələrinin fikri yalnız bu istiqamətdədir”.

**Nihat Müzəffər**

# "İngiltərə dini qruplaşmanın qarşısını ala bilməyib..."

## Həşim Səhrablı: ”Azərbaycan tərəfi hər bir ölkədən öz səfirliklərinin təminatını almalıdır”



**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov avqustun 4-də Azərbaycanın Londondakı səfirliyinə edilən hücumla bağlı danışıb. O bildirib ki, Britaniya Azərbaycan səfirliyinə hücumun təkrarlanmayacağına dair zəmanət verməlidir: ”Bizə Böyük Britaniyanın müvafiq orqanlarından ilkin məlumat verilib. Həmin qurumlar Azərbaycan səfirliyinə hücumun araşdırılması ilə çox ciddi məşğuldurlar.**

Birləşmiş Krallığın Bakıdakı müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə çağrılıb. Onunla hərtərəfli, ciddi söhbətimiz olub. Birinci məsələ və bizim Böyük Britaniyadan əsas gözləntimiz ilk növbədə Azərbaycana qarşı belə halların təkrarlanmamasına dair zəmanətlərin verilməsidir. Bu, Birləşmiş Krallığın Vyana Konvensiyasına əsasən öhdəliyidir. Diplomatik missiyaların, diplomatların təhlükəsizliyinin, toxunulmazlığının qorunması Vyana Konvensiyasının, əsasən hər bir qəbul edən tərəfin birbaşa məsuliyyətidir”.

**Hərbi-siyasi ekspert Həşim Səhrablı XİN başçısının Britaniya hökumətinə çağırışını ”Şərq”ə dəyərləndirərək bildirib ki, Azərbaycan səfirliyi hücuma məruz qalan tərəfdir. Ceyhun Bayramov məsələyə yerində münasibət bildirib.** Azərbaycan tərəfi hər bir ölkədən öz səfirliklərinin təminatını almalıdır. İstər İngiltərə, istərsə də başqa bir ölkə hər hansısa bir xarici ölkənin öz ölkəsində səfirlik açmasına icazə verirsə, diplomatik əlaqələr qurursa, deməli, o ölkənin ordakı səfirliyinin təhlükəsizliyini də beynəlxalq hüquq səviyyəsində öz üzərinə götürməlidir. İngiltərənin də belə bir məsuliyyəti var. Ordakı Azərbaycan diplomatlarının təhlükəsizliyi İngiltərə dövlətinin üzərindədir. Bunun üçün onlara onlara xüsusi müraciət etməyimizə də ehtiyac qalmamalıdır”.

Ekspert diqqətə çatdırıb ki, belə hadisələrdən heç bir ölkə sığortalanmayıb: ”Görünən odur ki, İngiltərə kimi güclü bir dövlətdə özlərini dini qruplaşma üzvü sayan şəxslərin qarşısını ala bilməyib. Bundan sonra təkrar bu halın yaşanma ehtimalı da var. Belə hadisələrin bir daha baş verməyəcəyinə zəmanət vermək olmur.

Ümid edirəm ki, İngiltərə tərəfi C.Bayramovun bu çağırışından sonra həm Azərbaycan, həm də digər ölkə səfirliklərinin təhlükəsizliyi ilə bağlı məsələlərə daha həssas yanaşacaq”.

H.Səhrablının sözlərinə görə, bu hal təkrarlansa belə İngiltərənin buna qəsdən şərait yaratdığını deyə bilmərik: ”Çünki təhlükəsizlik məsələlərində bəzən nələrsə gözdən qaça bilir”.

**Günəş Mərd**

**Məhərrəm ayının 10-cu günü Aşura gününə təsadüf edir. Şiə müsəlmanları üçün olduqca mühüm olan bu gün matəm kimi qeyd olunur.**



# "İnsanlara dinin gözəllikləri aşılanmalıdır"

## Hacı Atif İsmayılov: “Bu gün insanlar Bakıda mülayim şəkildə İmam Hüseynə olan sevgisini, məhəbbətini sakitcə ifadə edir”

Bu tarixdə Məhəmməd Peyğəmbərin nəvəsi İmam Hüseynin və onun ailəsinin Kərbəla döyüşündə şəhid olmasına görə, bu gün bütün şiə müsəlmanlar yas saxlayır, müxtəlif dini ayinləri yerinə yetirir. Ölkəmizdə də hər il Aşura günü məscidlərdə, dini məkanlarda mərasimlər keçirilir, insanlar qanvermə aksiyasına qoşulur.

Lakin bəzi insanlar tərəfindən yayılan videolar bu günün təhrif olunmasına gətirib çıxarır. Belə videolardan biri də feysbuk sosial şəbəkəsində yayılıb. Videoda bir şəxsin əlində ”ələm” adlandırdığı dəyənəklə yerə yıxıldığı görünür. Guya, həmin dəyənək onu tutan şəxsi idarə edir, sosial media istifadəçilərinin dili ilə desək, dəyənək ”cuşa gəlir”.

**Bu tip bir neçə video hər il mütəmadi olaraq mediada yayılır, müzakirə mövzusuna çevrilir. İlahiyyatçı Hacı Atif İsmayılov ”Şərq”ə bu barədə deyib ki, Azərbaycanın bəzi bölgələrində dini savadlılığın az olması nəticəsində bu kimi hallar baş verir:** ”Xüsusilə, Sovet rejimindən sonra məscidlərimiz, ibadət yerlərimiz açıldı, insanlar rahat dini ayinlərini icra etməyə başladı. Lakin bu zaman dini biliklərə mənsub olan şəxslərin sayı az və dini maariflənmə işində təbliğatın zəif olduğuna görə insanlar bu cür kənar ölkələrdən daxil olan ”adət-ənənələrə” yiyələndilər. Təbii ki, bunların İmam Hüseynin Aşura məktəbi ilə əlaqəsi yoxdur. Sadəcə, İmam Hüseynə əzadarlıq saxlayanların özünəməxsus matəm şüarları, qeydetmə forması var. Məhz bu da Azərbaycanda çox qədim əzadarlıq saxlama metodudur. Məsələn, ələmin uçması, zəncirin vurulması, hətta baş yarmalar qədim zamanlar ölkəmizdə mövcud olub.

Biz bunu inkar edə bilmərik. Sovet dönəmindən öncə və sonra dini maariflənmə həddən artıq az olduğuna görə bu kimi ayinlər yerinə yetirilirdi. Hətta uşaqlığımda yaşadığım Cənub bölgələrində bəzi məscidlərdə bu rituallar qeyd olunurdu. O zaman insanlar bunu xurafat kimi qəbul etmirdirlər.

Zamanın tələblərinə uyğun insanlara dini biliklər aşılanmadığına görə onlar İmam Hüseynə olan hüzn və kədərini hansısa formada yerinə yetirirdilər. Amma indiki zamanda insanlar dinə daha çox sevgi və rəğbət bəslədiyinə görə elmə fikir verilir, Quran təbliğ olunur, Peyğəmbərin nəvəsinin başına gələn hadisələr televiziyalarda göstərilir. İnsanlar da həqiqəti dərk etdikdə anlayır ki, bu addımların Aşura məktəbi ilə bağlılığı yoxdur. 20-30 il əvvəl Azərbaycanda qan çıxarma olayını indi biz xurafat kimi qəbul edirik və onu qanvermə ilə əvəz etmişik. Gələcəkdə bununla bağlı fəsadlar ortaya çıxarsa, biz məcbur qanverməni də başqa bir münasib yolla əvəz edəcəyik”.

*İlahiyyatçı hesab edir ki, maariflənmə işlərinin aparılması məqsədəuyğundur:* ”Bu gün insanlar Bakıda mülayim şəkildə İmam Hüseynə olan sevgisini, məhəbbətini sakitcə ifadə edir. Xütbələr dinlənilir, mərsiyələr normal şəkildə deyilir.

Biz buna maariflənmə sayəsində nail olmuşuq. Azərbaycanın ucqar rayonlarında qalan bu adət-ənənələrin aradan qalxması üçün o bölgələrdə olan dini icmalarda, məscidlərdə aktiv fəaliyyət göstərilməlidir.

İnsanlara düzgün təlim verməli, dinin gözəllikləri anladılmalıdır. Həmin bölgələrə yüksək səviyyədə biliyə malik olan insanlar təyin olunmalıdır. Nəticədə insanlar yavaş-yavaş anlayar ki, hansı əməllər İmam Hüseynin əzadarlıq məktəbinə fayda verər, hansı əməllər zərər verər.

Bizim dinə düşmənçilik edənlər bunları pis formada qələmə verirlər. Amma insanları dinləsələr, görəcəklər ki, bu yalnız əzadarlığın bir ifadə formasıdır. Bu insanlar arasında yüksək səviyyədə maariflənmə işi aparılsa, ümid edirəm ki, bu məsələ də öz həllini tapacaq”.

**Çimnaz Şahlar**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

### Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

# "Mediada gedən məlumatları diqqətlə izləyirik"

## Baş prokuror: "Biz qanun pozuntularına vaxtında müdaxilə etməliyik"



**Bəzən ilk mənbədən alınmamış, obyektivliyi əks etdirməyən məlumatların sosial şəbəkələrdə yer alması ictimai rəydə çaşqınlıq yaradır, cəmiyyət tərəfindən birmənalı qəbul olunmur. Halbuki, Azərbaycan kimi postmüharibə dövründə yaşayan bir dövlət üçün informasiya mühitinin təhlükəsizliyi önəmli məsələdir.**

Ölkəmizdə söz, mətbuat azadlığının təminatı üçün lazımi şəraitin yaradılması, müstəqil mətbuatın inkişafına dövlət dəstəyinin artırılması sosial şəbəkələrin məkan və əhatə dairəsini genişləndirir. Və bu səbəbdən internet resurslarından istifadənin qlobal xarakter aldığı müasir dünyamızda strateji vəzifə olan milli informasiya məkanının qorunması, operativliyin təminatına diqqəti artırmaqla, dəqiqlik tələb edir. Milli-mənəvi dəyərlərimizlə uyğunlaşmayan, daha çox şəxsi maraqları, cinayətləri, ailə-məişət, qadın və uşaq zorakılığını, etik normalardan kənar informasiyaları yaymaqla istifadəçi "ovuna" çıxan sosial şəbəkələrin başqalarının şəxsi həyatı ilə bağlı açıqlamaları insanları üz-üzə qoyur. Son nəticədə narazılıq yaradan məsələlər məhkəmə salonlarında həll edilir. Bəzən isə sosial şəbəkələrdə Silahlı Qüvvələrimiz, şəhidlərimiz haqqında yayılan və ictimaiyyət tərəfindən qəbul olunmayan saxta, yalan informasiyalar yayılır. Ona görə də sosial şəbəkələrdə informasiya təhlükəsizliyi məsələsi son günlər ölkədə ciddi müzakirə predmetinə çevrilib. Hətta Baş Prokurorluğun təşkilatçılığı ilə "Media azadlığı və sosial şəbəkələrin güclənən təsiri şəraitində cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunması" mövzusunda konfrans keçirilib.

Azərbaycanda informasiya mühitinin sağlamlaşdırılması, qeyri-dəqiq və mənbəyi şübhə doğuran məlumatların tirajlanmasının qarşısının alınması məqsədilə təşkil edilmiş konfransda Baş prokuror Kamran Əliyev, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Mətbuat Şurasının sədri Əflatun Amaşov, eləcə də nüfuzlu media qurumlarının rəhbərləri, ali təhsil müəssisələri və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak edib.

Konfrans çərçivəsində Azərbaycanda informasiya təhlükəsizliyinin qorunması naminə vacib əhəmiyyətli məsələlərlə bağlı rəy və təkliflər nəzərə alınıb. Sosial şəbəkələrdə mövcud olan və bəzi hallarda ictimaiyyət tərəfindən narazılıqla qarşılanan mövcud vəziyyətdəki neqativ halların aradan qaldırılması ictimai tələb kimi qarşıya qoyulub.

**Baş prokuror Kamran Əliyevin sözlərinə görə, Azərbaycanda medianın zəruri inkişafı üçün şərait var:** "Müasir cəmiyyətlərin inkişafını medianın inkişafı olmadan düşünmək olmaz. Tam əminliklə deyə bilərik ki, Azərbaycanda media artıq hakimiyyətin 4-cü qoludur. Vətən müharibəsi dövründə bizim jurnalistlərimiz birbaşa cəbhə bölgəsində fəaliyyət göstərdi, eyni zamanda Azərbaycanın haqlı mübarizəsini dünyaya çatdırdılar".

"Mediada gedən məlumatları diqqətlə izləyirik. Daim çalışırıq ki, istintaq sirrini qorumaq şərti ilə cəmiyyəti məlumatlandıraq"- deyə K.Əliyev əlavə edib.

Baş prokuror bildirib ki, hamı Azərbaycan dövlətinə xidmət edir: "Məqsədimiz ondan ibarətdir ki, bəzi yaranmış problemlərlə əlaqədar nəticələr əldə etmək üçün bərabər şəraitdə fikir mübadiləsi aparaq. Bizim məqsədimiz yaranan bəzi boşluqları aradan qaldırmaqdır. Azərbaycan Prokurorluğu dövlətin təhlükəsizliyinə və müdafiə qabiliyyətinə yönələn hərəkətlərlə bağlı qəti addımlar atıb və bundan sonra da atacaq. Biz qanun pozuntularına vaxtında müdaxilə etməliyik. Bəzi xəbərdarlıqlar sosial şəbəkə istifadəçiləri tərəfindən aqressiv qarşılanır".

**Mətbuat Şurasının sədri Əflatun Amaşov isə qeyd edib ki, dövlət hər bir cəmiyyət üzvünün hüququnun qorunmasına mükəlləfdir.** Mətbuat Şurası media ilə ictimaiyyət arasında münasibətləri tənzimləyən ictimai qurumdur. Bu vaxta qədər Mətbuat Şurasına vəzifəli şəxslər, vətəndaşlar tərəfindən 18 minə yaxın şikayət daxil olub.

Onun sözlərinə görə, şikayətlərin tam əksəriyyəti araşdırılıb: "Bu günlərdə də Mətbuat Şurasına şikayətlər daxil olmaqdadır. Sabah biz iclasımızda bəzi şikayətlərə baxacağıq. Mətbuat Şurası olaraq jurnalistlərə 1000-ə yaxın "press" gödəkçələr də verilib. Biz jurnalistlərin pandemiya dövründə vaksinasiyasını da təşkil etmişik".

### "Bizim məqsədimiz yaranan bəzi boşluqları aradan qaldırmaqdır"

*Ə.Amaşov qeyd edib ki, reketçiliklə bağlı məsələlər cinayət işidir:* "Azərbaycan mətbuatında reketçilik mövcud olub. Daxil olan şikayətlərin də 30-35 faizi reketçiliklə bağlıdır. Əvvəlki dövrlərə nisbətən indi reketlər daha peşəkarlaşıb. Qanunun sərt üzü üzə çıxmalıdır. Hər iki tərəf cəzalandırılmalıdır. Onlar jurnalistikaya cəmiyyəti məlumatlandırmaq üçün gəlməyiblər. Təklif edirəm ki, reketçilik edənlərlə bağlı qanun sərtləşdirilsin".

Yaxın günlərdə Media Reyestrinin yaradılacağını bəyan edən Ə.Amaşovun sözlərinə görə, son vaxtlar medianın inkişafı ilə bağlı xeyli islahatlar həyata keçirilib: "Media haqqında" yeni qanun qəbul edilib. Biz cəmiyyətin media savadlılığının artırılması istiqamətində işlər görməliyik".

**Daha sonra Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov,** eləcə də media qurumlarının rəhbərləri, ali təhsil müəssisələri və qeyri-hökumət təşkilatlarının nümayəndələri medianın qarşısında duran əsas məsələlər barədə müzakirələr aparıblar.

**Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli** isə deyib ki, dünyanın aparıcı dövlətləri sosial şəbəkələri tənzimləmək üçün qanunlar qəbul edirlər. Elə mövzular var ki, onların tənzimlənməsi üçün qanunlar hazırlanır.

Onun sözlərinə görə, dünyada sosial şəbəkələr güc mərkəzi kimi çıxış edirlər: "Bunun tənzimlənməsi üçün müəyyən tədbirlər görülməlidir və ayrı-ayrı dövlətlər tərəfindən bu edilir. Məsələn, Fransada çoxsaylı məsələlər var ki, onlarla bağlı nifrət çıxışının qarşısının alınması üçün qanun hazırlanıb. Hazırda Almaniya, Polşa, Fransa və digər ölkələrdə bu cür qanunlar hazırlanıb. Sosial şəbəkəni tənzimləyək deyə bir məsələ yoxdur. Ancaq sosial şəbəkələrdə uşaqların hüquqlarının, müəllif və digər hüquqların qorunmasına zərurət var".

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Xaricdə təhsil alanların əksəriyyəti oğlanlardır

## Çünki valideynlərin çoxu qız övladlarının yanında olmasını istəyir

**Son illər övladlarının xaricdə təhsil almasına can atan valideynlərin sayı daha da çoxalıb. Çünki xaricdə təhsilin keyfiyyəti, eyni zamanda uşaqları üçün yeni imkanların açılacağına inam onlarda belə bir arzunun yaranmasına səbəb olub. Amma o da müşahidə edilir ki, xaricdə oxumaq istəyənlər arasında daha çox oğlanlar üstünlük təşkil edir.**



2022-2023-cü tədris ilində Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alacaq 229 gəncin 67 faizini kişilər təşkil edir. Bunu 2019-2023-cü illər üzrə Dövlət Proqramı İdarəetmə Qrupunun rəhbəri Turan Topalova Dövlət Proqramları çərçivəsində xaricdə təhsil mövzusunda brifinqdə çıxışı zamanı deyib.

O bildirib ki, qalan 33 faizini isə qadınlar təşkil edir: "Dövlət Proqramının illik hədəf göstəricisində 400 yer nəzərdə tutulub. Bunlardan 80 yer bakalavriat səviyyəsi, 320 yer isə magistratura səviyyəsi üzrədir. Bakalavriat üzrə yerlər dolduğu üçün magistratura səviyyəsi üzrə mövcud kvotada boş təqaüd yerlərinə 10-25 avqustda yenidən sənəd qəbulu elan olunub".

Xaricdə təhsil üzrə ekspert Fuad Hacıyev bildirib ki, əcnəbi universitetlərdə oxumaq istəyən qızların çoxu əyani təhsilə üstünlük verirlər. Qiyabi təhsil alanlar daha çox müəyyən qurumlarda çalışan xanımlardır: "Xaricdə təhsil almaq üçün daha çox xanımlar müraciət edir. Lakin buna baxmayaraq xaricdə təhsildə oğlanlar daha çox üstünlük təşkil edir. Fikrimcə, xaricdə təhsil alan qızların az olması birbaşa ölkədəki vəziyyətlə bağlıdır. Valideynlərin çoxu qız övladlarının yanında olmasını istəyir. Məhz buna görə də valideynlər qız övladlarının Azərbaycanda təhsil almasına üstünlük verirlər. Xaricdə təhsil alan xanımlar isə ən çox Türkiyə, İtaliya, Almaniya kimi ölkələrə üstünlük verirlər".

**"Gənc Vətəndaş" İctimai Birliyinin icraçı direktoru Günel Səfərova "Şərq"ə açıqlamasında deyib ki, açıqlanan bu statistika təsadüfi deyil. Xaricdə təhsil almaq üçün müraciət edən gənclərin real göstəricisidir:** "Hamımız bilirik ki, hansı ailənin övladını xaricdə oxutmaq imkanı varsa, bu hüquqdan daha çox oğlan uşaqları yararlanır. Bu nə Təhsil Nazirliyinin, nə də hər hansı bir dövlət qurumunun seçimidir. Xaricdə təhsil alan gənclər arasında qız uşaqlarının sayının az olması birbaşa valideynlərin yanaşması ilə bağlıdır. Bizdən olsa, qızların xaricdə təhsil almasına daha çox şərait yaradarıq. Gender bərabərliyinin mühüm istiqamətlərindən biri məhz təhsillə bağlıdır. Eyni zamanda, qadın və kişilərin bərabər təhsil almaları ölkədə hüquq bərabərliyinin fundamental əsaslarından biridir. Və faiz nisbətinin bu qədər çox olması o demək deyil ki, qızların bilik və bacarığı xaricdə təhsil almağa imkan vermir. Əksinə, kifayət qədər savadlı və ən yüksək reytinqli universitetlərdə oxumağa layiq qızlarımız çoxdur. Amma əksər valideynlər qız uşaqlarının xaricdə təhsil almasına müsbət yanaşmır, hətta bir çoxları buna birmənalı əngəl törədir. Bəzən deyirlər texniki elmlərdə oğlanlar daha çox uğur qazanır. Qızlar humanitar sahələr üzrə daha çox bacarıqlıdır. Halbuki, bu, istedadla bağlı bir şey deyil. Cəmiyyətin oğlan və qız uşaqları arasındakı ayrıseçkiliyidir. Belə bir araşdırma yoxdur ki, qız uşaqlarının bu fənlər üzrə bilik və bacarıqları yetəri səviyyədə deyil. Qızların daha çox humanitar fənlərə yönəlməsi aldığımız tərbiyə və davranış qaydalarımızdan irəli gəlir. Düzdür, 90-cı illərlə müqayisədə müsbət tendensiyalar var. Amma hələ də "qızlar ancaq həkim və müəllim olmalıdır" kimi düşünən insanlara rast gəlmək olar".

**G.Səfərovanın sözlərinə görə, xaricdə təhsil alan qızların sayının az olmasından daha böyük problem onların təhsildən yayındırılmasıdır:** "Qızlar orta məktəbi bitirsələr də davamlılığı itir, orta məktəbi bitirən kimi ailə qurmağa məcbur edilən qızlar ali təhsil almaq imkanlarından məhrum edilir. Nəinki ucqar rayonlarda, Bakı kəndlərində qız uşaqlarının oxumasına qarşı çıxan yüzlərlə ailələr var. Bununla bağlı mütləq qanunvericiliyə dəyişiklik edilməli və qız uşaqlarını təhsildən yayındıran ailələr üçün cəzalar artırılmalıdır. Hər şeydən əvvəl dərsdən yayınmanın səbəbləri hərtərəfli araşdırılmalı, geniş müzakirə olunmalı, yaranan vəziyyətdən çıxış yolu kimi ilk növbədə daxili nizam-intizam qaydalarının gücləndirilməsi üzrə məktəbin məsuliyyətinin artırılması istiqamətində ciddi addımlar atılmalıdır. Bu təkcə sırf təhsil məsələsi olmayıb bir sıra mədəni və mənəvi aspektlərə sıx bağlı bir məsələdir. Bir halda ki, ali təhsilin hamı üçün əlçatan olmasını hədəfləmişik, deməli, hər bir yeniyetmə və gəncimizin, xüsusilə də qızlarımızın tam orta təhsilini başa vurmasının, heç olmasa, ümumi icbari təhsildən kənar qalmamasının da qayğısına qalmalıyıq. Bir neçə valideyn cəzalandırılsa, digəri də baxıb nəticə çıxaracaq. Əks halda cəzasızlıq hökm sürdükcə, qız uşaqlarının oxumasına əngəl törədən amillər də artacaq. Siz xaricdə təhsil alan oğlanların sayının qızlardan çox olmasını problem kimi görürsünüz, mənim üçün isə 33 faiz sevindirici bir nəticədir. Qızların ali təhsil alması ölkə daxilində belə mübahisə doğurursa, bu qədər gəncin xaricdə təhsil almaq imkanına sahib olması sevindirici haldır".

**Təhsil eksperti Elçin Əfəndi isə deyib ki, xaricdə təhsil alan tələbələr arasında oğlanların üstünlük təşkil etməsinin əsas səbəbi oğlanların imtahan nəticələrinin daha yüksək olması ilə bağlıdır:** "Təbii ki, mentalitetin də təsiri var. Valideynlərin əksəriyyəti qız uşaqlarının xaricdə təhsil almasının tərəfdarı deyillər. Bu da birbaşa statistikaya öz təsirini göstərir. Valideynlər düşünür ki, qız uşaqları qərib ölkədə rastlaşacaqları çətinliyin öhdəsindən gələ bilməz, problemlər qarşısında aciz qalıb çətinlik çəkər. Oğlan uşaqları isə bir yolla qarşısına çıxan problemləri aşacaq. Bu mənada valideynləri qınamıram, onları da anlamaq lazımdır. Qızlarının həyatı və gələcəyi üçün narahat olduqlarından onları yad ölkəyə göndərmək istəmir".

**Şəymən Bayramova**



# Müraciət edən ermənilərə vətəndaşlıq verilə bilməz

## Əlisahib Hüseynov: "Hələlik yalnız Xankəndidə yaşamış və yaşamaqda olan ermənilərə vətəndaşlıq verilməsi barədə düşünə bilərik"



**Son günlər Azərbaycan vətəndaşlığına qəbul olunmaq üçün dövlət başçısı İlham Əliyevə müraciət edən ermənilərin sayı artır. Ermənilərin müraciətləri cəmiyyətdə geniş müzakirələrə səbəb olub, hətta sosial şəbəkələrdə təpki ilə qarşılanıb.**

Bir çox soydaşlarımız hesab edirlər ki, hazırkı məqamda dünyanın müxtəlif guşələrindən müraciət edən ermənilərə nə vətəndaşlıq verilməli, nə də onların Şuşaya, Qarabağın digər guşələrinə səfərləri təşkil olunmalıdır. Onların fikrincə, sərhəddə atəşkəs rejiminin tez-tez pozulduğu, qanunsuz erməni silahlı dəstələrinin davamlı təxribatlar törətdikləri bir mərhələdə bu cür təşəbbüslərə müsbət yanaşma təhlükəli fəsadlarla nəticələnə bilər.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov "Şərq"ə deyib ki, ağır məğlubiyyətdən doğan çılğın revanşizm və qisas hissləri ilə alışıb-yanan ermənilərdən indiki məqamda hər cür pislik və təxribat gözləmək olar.**

Partiya sədrinin sözlərinə görə, biz keçmiş tarixi mərhələlərdə buraxdığımız səhvləri təkrarlamamalıyıq: "Ermənilərin uydurduğu cürbəcür "dostluq və sülh nağılları"na da əsla aldanmamalıyıq. Hazırda bütün diqqətimizi torpaqlarımızda qanunsuz məskunlaşmış Suriya, İraq, Livan ermənilərinin avqustun sonlarına qədər Laçın şəhərindən, Zabux və Sus kəndlərindən dinc şəkildə çıxarılmasına yönəltməliyik. Habelə sülhməramlıların nəzarəti altındakı digər ərazilərimizin terrorçu-separatçı ünsürlərdən, qanunsuz erməni silahlı dəstələrindən təmizlənməsinə nail olmalıyıq.

O ki qaldı ermənilərə vətəndaşlıq verilməsinə, biz indiki mərhələdə hələlik yalnız Xankəndidə yaşamış və yaşamaqda olan ermənilərə vətəndaşlıq verilməsi barədə düşünə bilərik. Bu da yalnız Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü qəbul edən və heç bir separatçı fəaliyyətlərdə yer almayan mülki ermənilərə şamil oluna bilər. Hər yerindən duran, yuxusunu qarışdıran erməniyə vətəndaşlıq verəcəyik deyə hansısa bir öhdəçiliyimiz yoxdur. Ümumiyyətlə, hesab edirik ki, vətəndaşlığa qəbul prosedurları indiki məqamda bir qədər sərtləşdirilməlidir. Bu da gələcəkdə millətin və dövlətin təhlükəsizliyinə təhdid yarada biləcək hallardan mümkün qədər sığortalanmağımız üçün vacibdir".

**İsmayıl Qocayev**

# Dünyaya səs salacaq

## Xocalıdan bəhs edən film xaricilərin də diqqətini çəkəcək



**Dünyaya səs salacaq yeni film fantastik, macəra, dram janrındadır. Müasirliklə keçmişin uzlaşması. Xocalı hadisələri də xatırlanır.**

**"Şərq"in qonağı yaxın vaxtlarda çıxan treyleri ilə ölkəmizə səs salan "Proyekt2602" filminin senari müəllifi və rejissoru Rafiq Hacıyevdir.**

Həmsöhbətim əvvəllər musiqiçi, həmçinin səs rejissoru olub. Təxminən 10 ildən çoxdur ki, film istehsalı ilə məşğuldur. Əsas istəyi isə Azərbaycanda film sektorunun inkişafı, milli kinomuzu dünyaya tanıtmaqdır. R.Hacıyev danışır:

- 1992-1993-cü illərdə "Ulduz müharibələri" filmini izləmişdim. Sonradan filmlərə həvəsim yarandı. Ümumiyyətlə, ölkəmizdə kino inkişafdan qalıb. Rejissor Stiven Spilberq, Ceyms Kemeron, Kristofer Nolan tərzini həmişə çox bəyənmişəm. Elə bir film çəkmək istəyirdim ki, xüsusi bir mesaj ötürsün. Daha müasir, hər kəsin bəyənəcəyi məhsul ortaya qoyulsun.

"Proyekt2602" filminin senari müəllifi R.Hacıyevlə yanaşı həm də senarist, aktyor Kənan Yusifdir. Müsahibim Kənan Yusiflə bir-birilərini yaxşı başa düşdüklərini söyləyir:

- İdeya bir-iki il ərzində formalaşdı. Senarist axtarmağa başlamışdım. Kənan Yusiflə tanış olduq.

### Rejissor Rafiq Hacıyev:
### *"Filmin istehsalı üçün 1 milyon 800 min manat maliyyə vəsaiti lazımdır"*





**- Kənanın hansı işləri sizi cəlb etmişdi?**

- Heç bir işi. Mən sadəcə görüşdüyüm senaristlərlə müzakirə aparırdım. Mənim fikirlərimlə uzlaşan senarist axtarışında idim. Təbii, çox gözəl senaristlərimiz var. Amma hamı ilə işləmək olmur. Çünki tərəflər arasında əlaqə, isti münasibət yaranmalıdır.

**- Senari necə ərsəyə gəldi?**

- 5 il senarinin üzərində işlədik. Bu cür senarilərin yazılması uzun müddət tələb edir. Pandemiya dönəmində Raul Silaya adlı prodüser Azərbaycanda idi. Hollivuddandır, əsli meksikalıdır. Dostum, aktyor Zaur Şəfiyev onun barəsində danışırdı. Belə bir adam var deyəndə, onun Hollivuddan olduğuna inanmırdım. Raulla görüşdük. Gördüm ki, həqiqətən deyildiyi kimidir. Hollivudda 20 ildən çoxdur ki, böyük layihələr üzərində çalışıb. Hətta Stiven Spilberq, Leonardo Di Kapriyo, Tom Henks və digər xarici ulduzlarla bir yerdə çalışıb. Senarimizi ona da göstərdik. Bəzi məsləhətlər verdi. Texniki məsələlərlə bağlı düzəlişlərə kömək edəcəyini söylədi. 8 aya yaxın senarinin üzərində birlikdə çalışdıq, daha da təkmilləşdirdik və beləcə Raul filmimizin prodüserinə çevrildi. Sonra Raul söylədi ki, bu artıq əsl Hollivud senarisinə bənzəyir.

**- Xarici prodüserlə işləmək də bir avantajdır...**

- Əlbəttə. Raulla birlikdə büdcəni də hazırladıq. Fors-major hallar daxil bütün nüansları nəzərə almışıq. Elə prodüser var ki, sırf maliyyə tapır, eləsi də var, filmin dünya standartlarına cavab verməsinə şərait yaradır. Raulun da əlaqələri genişdir. Hər şey münasibət üzərində qurulub.

Onu da qeyd edim ki, filmin senarisi Amerikanın "Metro-Goldwyn-Mayer"və "Rocket Content" kimi şirkətlər tərəfindən müsbət rəy alıb. Həmçinin, Oskara namizəd, Bafta və Emmy mükafatların sahibi olan, Henri Hyuz (Henry Hughes) adlı amerikalı senarist-rejissor da senarimiz ilə tanış olub, çox müsbət rəy bildirib. Bunları İnstagram kanalımızda tezliklə paylaşacağıq.

**- Filmin mahiyyəti nədən ibarətdir?**

- "Proyekt2602" sırf Xocalı soyqırımından bəhs etmir. Film bir insanın - Ramilin hekayəsinin üzərində qurulub. Amma o, Xocalıdandır. Avtomatik Xocalıdan da söz açmış oluruq. O, zaman maşını üzərində işləyir. Xocalı hadisələrinə qayıdıb anasını xilas etmək istəyir. Filmi izləyən xarici vətəndaş istər-istəməz "Xocalı" yazıb "Google"də axtarışa vurub maraqlanacaqlar.

**Günəş Mərd:**

**- Xocalı hadisələri ilə bağlı bir çox sosial çarxlar, filmlər çəkilib. "Proyekt2602" digər filmlərdən nə ilə fərqlənir?**

- Düzdü, bu istiqamətdə işlər görülüb. Amma xaricilər üçün problemi qışqırsaq, heç kim qulaq asmayacaq. Artıq belə istiqamət işləmir. Hər bir problemi dünyaya çatdırmağın bədii həlli mövcuddur. Problemi birbaşa göstərməməliyik.

Tutalım, mən sizə söyləyirəm ki, gəlin, filan yerə baxaq, çox gözəldir. Onda gedib baxmaq istəmirsiz. Amma biri də var, mən sizi heç yerə çağırmıram. Deyirəm, orada çox maraqlı bir şey var. Özünüz durub baxmağa gedəcəksiz. Struktur bunun üzərində qurulub.

Məsələn, "Notre-Dame de Paris" əsəri olmasaydı, bəlkə də indi onun mövcudluğundan məlumatsız idim. Belə sənət əsərləri bizə bilmədən informasiya ötürür.

**- İnsanlar filmə baxanda özü də bilmədən baş verənləri "yeməlidir"...**

- Təbii ki. Həm də diqqət çəkməlidir. İnsanlar birbaşa mesajları artıq birmənalı qarşılamırlar. Problemi dolayı yolla çatdırmaq lazımdı. Ən uğurlu tanıtımlarda da əsas məqam tamaşaçını narahat etmədən çatdırılır. Artıq film Azərbaycan tamaşaçısı üçün çox maraqlıdır. Xaricilərin də diqqətini çəkəcək. Hətta indiyə kimi baxan xarici mütəxəssislər çox bəyənib.

**- Sosial şəbəkədə mənim də qarşıma çıxmışdı. Necə oldu ki, geniş kütlə tərəfindən sevildi?**

- İnstaqram səhifəm elə də aktiv deyil. Amma 26 fevralda @proyekt2602 instaqram səhifəsini açdım, bizim promo çarxı paylaşdım. Taleh Yüzbəyov, Elxan Rəcəbov, Oksana Rəsulova, Zülfiyyə Xanbabayeva və digərləri sağ olsun, paylaşdılar. Rəylər gəlməyə başladı, iki günə 140 minə yaxın adam izlədi.

Həmsöhbətim deyir ki, filmdə xarici vətəndaş rolu da var. Həmin obrazı Amerika, İngiltərənin məşhur simalarından biri oynayacaq. Hamının sevdiyi tanınmış türk aktyorları da filmdə yer alacaq:

- Türkiyədəki pradakşnlarla, həmçinin dövlət səviyyəsində danışıqlar aparırıq. Azərbaycanlı aktyorlar üçün yüngül kastinq keçirilib. Bəzilərini gözaltı etmişik. Promoda çəkilən aktyorlar qala da bilər, qalmaya da. Hər birinə təşəkkür edirik.

**- Promo çarxının çəkilişi harada gerçəkləşib?**

- Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının həyətində tərk edilmiş sex var. Demək olar, sıfırdan quruldu. Bir aya yaxın gedib gəldik. Quruluşçu rəssam Səbuhi Atababev də çox yardımçı oldu. Xeyli dostlarımız təmənnasız yardım etdi.

**- Filmin demo versiyasını izləyəndə "Sehirli xalat"a bənzərlik duymuşdum. "Proyekt2602"də də keçmişə səyahət edilir.**

- Ona görə deyirəm bu, müasir Azərbaycanın ilk fantastik filmidir. Əvvəllər belə filmlər çəkilib. "Qərib cinlər diyarında", "Sehirli xalat" və s. Lakin o vaxtlar vizual effektlər yox idi, hər şey təbii yolla və böyük əziyyətlərlə qurulurdu. Həmin dönəmə görə Əlisəttar Atakişiyevin möhtəşəm işlərindən biridir. Ermənilər hər yerdə qondarma soyqırımı ifadəsini sırımağa çalışırlar. Məsələn, Den Braunun "İnferno" əsərində (həm fimdə, həm kitabda), Kristian Beyl rol aldığı "Söz"(Promise) filmi və digərləri. Yaxın zamanda Disney+ rəqəmsal platformasında yayımlanan "Moon Knight" serialında da bənzər hadisə baş verib. Oskar Ayzeklə Ethan Havke arasında dialoqların birində "erməni soyqırımı" barəsində bir cümlə keçir. Çox danışılmır.

**Məncə, "Proyekt2602" filmi onlara layiqli bir cavab olacaq.**

- İnstaqramla yanaşı digər sosial şəbəkələrdə də paylaşaraq daha çox kütləyə səs salmaq olar...

- "Tik Tok" da paylaşım etmişik. Lakin izləyicimiz azdır. Başqaları bizim roliki paylaşır, 250 mindən çox baxış gəlir. Türkiyəli bloqer "twitch" sosial şəbəkəsində oyun oynayır. 3-4 milyon izləyicisi var. Azərbaycanlılardan biri həmin videonu çat hissəsinə göndərib. Sən demə, 15-20 min adam var imiş. Bloqer də videonu canlıda hər kəs üçün açıb. Sonuna kimi izləyib və çox bəyənib!

**Müsahibim deyir ki, paylaşılan görüntülər demo versiya olduğuna görə, musiqisi hələ tam hazırlanmayıb:**

- İzlədiyiniz promo çarxının ilk yarısında eşitdiyiniz musiqilər bəstəkar Ramin Vəlibəyov tərəfindən yazılıb. Hazırda onunla birgə film üçün yazılacaq musiqilər haqqında geniş müzakirə aparırıq.

**- İnsanlar filmin artıq çəkildiyini zənn edir.**

- Bəli, "filmə harda baxa bilərik" kimi kifayət qədər rəylər gəlir. Lakin bu, demo variantdır, film çəkilməyib. Filmin istehsalı üçün 1 milyon 800 min manat maliyyə vəsaiti lazımdır. 400 min manat Mədəniyyət Nazirliyi, 300 min manat Azərbaycan Televiziyası, 100 min isə xaricdə yaşayan biznesmenlər, azərbaycanlılar ianə edib.

**- Maliyyə vəsaitinin tamamlanması üçün dəstək kampaniyası da başlatmağı düşünmüsüz?**

- Biz artıq neçə müddətdir ki, "Crowdfunding" sistemini burada ilk dəfə tətbiq etmişik.

Veb səhifə yaratmışıq - www.proyekt2602.az. Hər bir vətəndaş 1 manat, 5 manat belə ödəniş edərək dəstək ola bilər. Hətta ianəçilər üçün hədiyyələr nəzərdə tutulub. Səhifədə hər şey ətraflı yazılıb.

Sosial şəbəkənin aktiv istifadəçiləri, dostlarımız da paylaşaraq dəstək verir. Sentyabrda yeni bir dalğa etmək istəyirik. Promo çarxın kinoteatrlarda yayımlanmasını planlaşdırırıq.

Bu kino ki, var, çox qəliz məsələdir. Həm qəlizdir, həm də ki, vacib. Kino təəssübkeşi Rafiq Hacıyev əsas addımı atıb, təkcə maliyyə tamamlanmayıb. Bizim də borcumuz əlimizdən gələn hər bir dəstəyi əsirgəməməkdir. Ümid edirik lazımi vəsait qısa müddət ərzində toplanacaq. Azərbaycan öz həqiqətlərini dünyada, beynəlxalq arenada işıqlandıra biləcək.

**Hazırladılar: Aygün Tahir, Günəş Mərd**

# Polis risk edib fəlakətin qarşısını alıb

## Sahib Məmmədov: "Böyük həcmli yanğınlar olduqda hadisə yerinə polislər, hərbçilər, hətta sıravi vətəndaşlar belə cəlb oluna bilər"



**Yevlaxda yanğın baş verən binadan partlama təhlükəsi olan qaz balonunu uzaqlaşdıran polisin görüntüləri sosial mediada geniş müzakirə edilib. Bir tərəf onun igidliyini alqışlayıb, digər tərəf isə "Orda FHN-in əməkdaşları olmalı idi, polis yox" fikrini müdafiə edib. Bununla yanaşı "Qaz xətti olan binada niyə balondan istifadə edirlər" sualı da səsləndirilir.**

*Polislərin yanğına qarşı mübarizəsi ilə bağlı təlimatlandırıldığını deyən Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov "Şərq"ə bildirib ki, polis risk edərək böyük fəlakətin qarşısını alıb:* "Yaşayış binalarında qaz balonundan istifadə edilməsi təhlükəli olduğu üçün məsuliyyət yaradır. Yəqin ki, binaya qaz verilməsi stabil deyil və bu, araşdırılmalıdır. Polisin hərəkətinə gəldikdə isə yanğını söndürmək Fövqəladə Hallar Nazirliyinin vəzifəsi olsa da, yanğın baş verdiyi zaman onlara kömək etmək lazımdır. Xatırladım ki, böyük həcmli yanğınlar olduqda hadisə yerinə polislər, hərbçilər, hətta sıravi vətəndaşlar belə cəlb oluna bilər. Polis yaxında olduğu üçün sağ olsun ki, risk edərək böyük fəlakətin qarşısını alıb. Ümumiyyətlə isə polislər də belə hallarla bağlı təlimatlandırılır. Yəqin ki, o da bu təlimata uyğun hərəkət edib və FHN gəldikdən sonra nəzarəti üzərinə götürüb".

**Nihat Müzəffər**

## "Nar" şəhid övladları üçün təşkil olunan "YAŞAT" Düşərgəsinə dəstək oldu



**"Nar" "YAŞAT" Fondunun və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə şəhid övladları üçün həyata keçirilən ikinci "YAŞAT" düşərgəsinə qatılıb.**

"Nar"ın da dəstəkçilərindən olduğu layihənin əsas məqsədi şəhid yadigarlarının gələcəyinə töhfə vermək, onların cəmiyyətə inteqrasiyasına kömək etməkdir. Mobil operator düşərgənin 4-cü həftəsində uşaqlar üçün mobil rabitə ilə bağlı interaktiv təlim təşkil edib.

"Nar"ın İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri Əziz Axundov tərəfindən keçirilən təlimdən sonra uşaqlar müzakirəyə qoşulub və bu sahə ilə bağlı onların sualları cavablandırılıb.

Şəhid övladlarına dəstəyin vacibliyini diqqətə çatdıran Əziz Axundov: ""Nar" olaraq bizim üçün xüsusi əhəmiyyətə malik olan bu layihənin bir parçası olmaqdan qürur duyur, uşaqların düşərgə zamanı əldə etdikləri təcrübələrin onların şəxsi inkişafına böyük töhfə verəcəyinə inanırıq", - deyə qeyd edib.

## "Qarşılarında baş əyirəm"

### Ramiz Novruz uzun sürən xəstəlikdən sağaldı



**Uzun müddətdir səhhətində problem yaşanan Xalq artisti Ramiz Novruz sağalıb.**

Bu barədə sənətçinin qızı Şəfəq Novruzov və oğlu Cavidan Novruz sosial şəbəkə hesablarında yazıblar.

R.Novruz videomüraciətlə sağalmasında ona yardımçı olan həkimlərə, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva təşəkkürünü bildirib:

"Azərbaycanda hamının özünə doğma bildiyi, Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür edirəm. Heydər Əliyev Fondu bizə dəstək oldu və bir daha göstərdilər ki, hər bir vətəndaş onlar üçün dəyərlidir: adi vətəndaşdan tutmuş tanınmış insanlara kimi. Bir az da utandım ki, onlar şəhidlərimizə, qazilərimizə, Qarabağın yenidən qurulmasına vaxt sərf etdikləri bir vaxtda fərdi insanlara da zaman tapıb qayğı göstərirlər. Qarşılarında baş əyirəm. Ona görə də Mehriban xanımı hər kəs özünə doğma bilir. Nə yaxşı ki, Heydər Əliyev Fondu, belə insanlarımız var. Bütün komandaya minnətdarlığımı bildirirəm".

*Qeyd edək ki, Xalq artistinin onkoloji xəstəlikdən əziyyət çəkdiyi deyilsə də o, haqqında çıxan xəbərləri təkzib etmişdi.*


**Elanlar**

Yeni Əmlak tikinti MMC-yə məxsus möhür itdiyi üçün etibarsız sayılır.

**Payçı müqaviləsi № 168210908114818**
*Xırdalan şəhəri*
Azərbaycan Respublikası qanunvericiliyini əsas tutaraq, bir tərəfdən "MTK" adlanacaq "Kristal Abşeron" Mənzil Tikinti Kooperativin Nizamnaməsinə əsasən hərəkət edən kooperativin Xırdalan filialının direktoru Məhərrəmov Azər Dilqəm oğlu şəxsində, digər tərəfdən "Payçı" adlanacaq Tovuz şəh., Sabir küç., ev 14 ünvanda yaşayan vətəndaş Ələkbərova Ceyran Ələkbər qızı (AZE 14328583, Tovuz RPŞ, 2013-12-25, FİN: 49LNJSZ) şəxsində, bir yerdə "Tərəflər" adlanacaq, aşağıdakı şərtlərlə bu müqaviləni bağladılar.



Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2251



# Hamı onunla foto çəkdirdi

## Müəllimliyə namizəd müsabiqəyə gəlinlikdə qatılıb

**Yozqatın Sarıkaya məhəlləsində yaşayan məktəbəqədər təhsil müəllimi Emine Bulut toyunu yarıda qoyub dərs müsabiqəsi üçün Yozqat Qiymətləndirmə Mərkəzinə gəlib.**

Müsabiqəyə gəlinliyi ilə gedən Emine Bulutu bəy Sezer Bulut tək qoymayıb.

Emine müsabiqədən sonra jurnalistlərə "Müsabiqə çox yaxşı keçdi. Məni gəlinlikdə görəndə çox təəccübləndilər. Foto çəkdirdilər, mənim üçün gözəl xatirə oldu" deyib.

Təyinat alacağını gözlədiyini dilə gətirən Bulut sözlərinə belə davam edib: "Gəlinliyim xeyirli olar, təyinat alaram. Karyeramı çox istəyirəm".

Bəy Sezer Bulut isə "Bizi toyda gözləyirlər. Toyumuzu xeyir-dua ilə bitirəcəyik. İnşallah, həyat yoldaşım təyinat alar və ikiqat xoşbəxtlik yaşayarıq" deyə sevincini gizlətməyib.

**Turan**

# Bu dəfə alınmadı

## Paraşütlə uçan məktəb direktoru dünyasını dəyişib



**Manisanın Əhmədli rayonundakı Çancılar İmam Hatip orta məktəbinin direktoru Cengiz Gültəkin (45) Ankarada yamac paraşütü ilə uçarkən qəza nəticəsində dünyasını dəyişib.**

Hadisə yerinə gələn sağlamlıq qrupları Gültəkinin həyatını itirdiyini müəyyən ediblər. Faciəli vəfat xəbərini alan ailəsi, dostları və şagirdləri yasa boğulub. Bədbəxt müəllimin evli və iki övladı olduğu öyrənilib. Hadisə ilə bağlı araşdırmalar davam edir.

Əhmədli Bələdiyyə Başçısı Ahmet Alhan da sosial media hesabından paylaşım edərək, "Rayonumuzun Çancılar İmam Hatip orta məktəbinin direktoru Cengiz Gültekinin vəfatını dərin hüznlə öyrəndim. Müəllimimizə Allahdan rəhmət, ailəsinə səbr diləyirəm. İnşallah, cənnətdə yerini tapar".

Yamac paraşütünə olan marağı ilə tanınan Gültəkin 2021-ci ildə müvəffəqiyyət qazanan tələbələrini "yamac paraşütü" ilə mükafatlandırıb və onlarla birlikdə uçub. Gültəkinin 3 ay əvvəl Manisa səmasında yamac paraşütü ilə uçarkən qəza keçirdiyi və qabırğasının sındığı da məlum olub.

**Turan**



# "Kainat gözəli" müsabiqəsinin qaydalarında dəyişiklik edilib

## Artıq yarışmada analar və evli qadınlar da iştirak edə biləcəklər

**"Kainat gözəli" müsabiqəsində iştirak qaydaları dəyişib. Gələn il 72-ci dəfə keçiriləcək müsabiqədə artıq analar və evli qadınlar da iştirak edə biləcəklər.**

Hər il dünyanın ən gözəl qadınının seçildiyi "Miss Universe" yarışmasının iştirak qaydalarında bəzi dəyişikliklər edilib.

Elan edilmiş qaydalara əsasən, artıq evli və uşaq sahibi olan qadınlar da "Kainat gözəli" olmaq üçün yarışa biləcəklər.

Qeyd edək ki, əvvəlcə dekabr ayında 72-ci dəfə keçiriləcək müsabiqədə yalnız 18-28 yaş arası subay qadınların iştirakına icazə verilmişdi.

2020-ci ildə "Kainat gözəli" elan edilən Andrea Meza İnsiderə "Gözəllik müsabiqələrinin dəyişməsinin və ailəli qadınlara açıq olmasının vaxtıdır" deyib.

"Miss Universe" öz növünün ən yaxşı və ən innovativ platformasıdır və anaları və evli qadınları daxil etməklə daha əhatəli olacaq", - təşkilatın nümayəndələri "The Post"a bildiriblər.

**Turan**

# Bülənt Ərsoya xam qızıl hədiyyə etdilər



**Türkiyəli müğənni Bülənt Ərsoy Uşak bölgəsində verdiyi konsert zamanı qiyməti hədiyyə alıb.**

Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, sənətçiyə pərəstişkarı özünə aid olan qızıl mədəndən çıxardığı xam qızılı bağışlayıb. Ərsoy təşəkkür edərək "Heç vaxt xam qızıl hədiyyə almamışdım, bu da digərləri kimi kassam da qalacaq" söyləyib.








# Braziliyada 10 meymun öldürülüb

## Meymunçiçəyinə görə heyvanlara qarşı hücumlar artıb



**Braziliyada meymunçiçəyi xəstəliyinə görə meymunlara qarşı amansız hücumlar başlayıb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Braziliyada çirklənmə narahatlığı səbəbiylə bir çox meymunun öldürülməsi barədə açıqlama yayıb. Son bir həftə ərzində ölkədə 10-dan çox meymun öldürülüb. Alimlər isə virusun insandan insana keçdiyini və virusun əsl mənbəyi olan heyvanın məlum olmadığını bir daha bildiriblər.

Braziliyanın G1 xəbər saytının xəbərində meymunçiçəyi xəstəliyinin artmasından narahat olanların bir həftədən az müddətdə 10 meymunu zəhərlədiyi deyilib. ÜST-nin sözçüsü Marqaret Harris mətbuata açıqlamasında heyvanlara edilən hücumlardan təəssüfləndiklərini bildirib. Virus səbəbiylə insanların heyvanlara hücum etməməli olduğunu deyən Harris, "İnsanlar bilməlidirlər ki, mövcud epidemiyada yoluxma insanlar arasındadır",- deyə qeyd edib.

**Çimnaz Şahlar**



# Dörd müsəlmanı öldürən şəxs tutuldu

## Onun şəxsiyyəti hamını şoka saldı

**ABŞ-ın Nyu-Meksiko ştatında polis 4 müsəlman kişinin qətlində şübhəli bilinən şəxsi saxlayıb.**

**Səlahiyyətlilər bildiriblər ki, Məhəmməd Seyid adlı "əsas şübhəli" qətldə ittiham olunub. 51 yaşlı Məhəmməd Seyid iki nəfəri öldürməkdə şübhəli bilinir. Bildirilir ki, Seyid Nyu-Meksikonun ən böyük şəhəri olan Albukerkedə öldürülənlərin hamısını şəxsən tanıyıb.**



Polis Seyidin evində çoxlu sayda odlu silah olduğunu bildirib. Seyidin Əfqanıstanda doğulduğu və ABŞ-a "son bir neçə ildə" gəldiyi güman edilir. Birincisi, 9 ay əvvəl, digərləri son iki həftə, sonuncusu isə cümə günü törədilən qətllərin istintaqı davam edir. Polis çərşənbə axşamı bildirib ki, o, "son bir neçə ildə" Əfqanıstandan mühacirət edib və iki dəfə məişət zorakılığı ilə bağlı ittiham irəli sürülüb. Lakin bəyanata görə, bu ittihamlar götürülüb.

DailyMail.com-un əldə etdiyi məhkəmə qeydləri Seyidin 2018-ci ilin may ayında həbs edildiyini və "məişət zorakılığı" ilə ittiham edildiyini ortaya qoyub. Məhəmməd Seyid özünü təqsirli bilməyib və prokurorlar həmin ilin avqustunda ittihamları ləğv ediblər. Yalnız dörd ay sonra, təqvim 23 dekabr 2018-ci il tarixini göstərəndə Seyid bu dəfə ağırlaşdırılmış hücumda ittiham olunub. Lakin 2019-cu ilin aprelində işə xitam verilib.

"New York Times" qəzetinin yazdığına görə, qatilin özünün də sünni müsəlman olduğu və qızının şiə müsəlmanla evlənməsinə qəzəbləndiyi üçün qurbanlarını hədəfə aldığı güman edilir. Lakin qurbanlardan birinin qardaşı DailyMail.com-a ailələrinin şiə deyil, sünni olduğunu bildirib və bu ehtimala inanmadığını bildirib.

Pusqu ilə vurularaq öldürülənlərdən üçü Pakistan, biri isə əfqan əsilli olub. Dörd nəfərin də eyni məscidə getdiyi məlum olub. Çərşənbə axşamı Albuquerque polisi, ictimaiyyətdən gələn xəbərlər sayəsində Seyidin şəxsiyyətinin avtomobili ilə təsdiqləndiyini söyləyib. "Bazar ertəsi detektivlər Seyidin evində axtarış aparmağa hazırlaşıblar, Seyid dedektivlərin ən azı qətllərdən birində istifadə olunduğuna inandığı "Volkswagen Jetta" ilə əraziyə gəlib", - deyə məlumatda bildirilir. Əməliyyatçılar Seyidi saxlayıb, evində və avtomobilində axtarış aparıblar. Axtarışlar nəticəsində onlar Seyidin qətllərlə daha da əlaqəsini göstərən dəlillər aşkar ediblər.

Qətllər Albukerkedə müsəlmanlar arasında panikaya səbəb olub, şəhərdəki məscidlərdə təhlükəsizlik tədbirləri gücləndirilib.

Bazar ertəsi verdiyi açıqlamada ABŞ Prezidenti Co Bayden qətllərdən qəzəbləndiyini və kədərləndiyini vurğulayaraq, "Dualarım qurbanların ailələrinədir. İdarəm müsəlmanların yanındadır. Bu mənfur hücumların Amerikada yeri yoxdur" deyib.

Türkiyə Xarici İşlər Nazirliyi də yazılı açıqlamada qətllərdən "dərin narahatlıq keçirdiyini" bildirib və cinayətlərin tez bir zamanda aydınlaşdırılmasını və cinayətkarların məsuliyyətə cəlb edilməsini istəyib.

**Turan**

# Şahzadə 32 yaşlı tələbə ilə nişanlandı

## Nişan Bavariya Kral Evinin ofisi tərəfindən rəsmi olaraq elan edilib



**40 yaşlı Bavariya şahzadəsi Lüdviq Haynrix Hollandiya-Kanada ailəsindən olan Oksford kriminologiyası tələbəsi 32 yaşlı Sofi-Aleksandra Evekinkə evlilik təklifi edib.**

Milli.Az bildirir ki, bu barədə Daily Mail məlumat yayıb.

Qarşıdan gələn toy haqqında söz-söhbətlər Evekinkin adsız barmağında böyük zümrüd olan üzüyü görüldükdən sonra yayılmağa başlayıb. Daha sonra nişan Bavariya Kral Evinin ofisi tərəfindən rəsmi olaraq elan edilib.

Lüdviqin atası şahzadə Luitpoldun sözlərinə görə, o, cütlüyün tezliklə ailə həyatı quracağına ümid edir. "Lüdviq yaxşı seçim etdi. Gələcək gəlinim çox ağıllı və savadlı qadındır", - deyə o əlavə edib.

Şahzadə Lüdviqin Bavariyanın Berxtesgaden alman icmasında Evekinkə evlilik təklifi etdiyi güman edilir. Toy tarixi hələ təyin olunmayıb.

Bavariya şahzadəsi Lüdviq-Haynrix 14 iyun 1982-ci ildə Almaniyanın Bavariya federal əyalətində yerləşən Landsberg an der Lex şəhərində anadan olub. O, Şahzadə Luitpold Ruprext Heynrix və şahzadə Katrin Beatriks Vigandın beş uşağının üçüncüsüdür. Şahzadə Bavariyanın titullu kralıdır.

Bavariyadan olan Lüdviq siyasi elm və hüquq üzrə təhsil alıb və əmisi oğlu Bavariya hersoqu Franz Bonaventura Adalbert Maria tərəfindən Kral Evinin mülklərinin idarə edilməsi üzrə təlim keçib.

# Anomal istilərdən 733 nəfər ölüb

## İtaliyada ölüm halları 21 faiz artıb



**İtaliyada müşahidə edilən anomal istilər ölüm hallarının 21 faiz artmasına səbəb olub.**

İtaliya Səhiyyə Nazirliyinin məlumatına görə, 16 may -15 iyul tarixlərində anomal istilər səbəbindən ölkənin ümumilikdə 33 şəhərində 733 nəfər ölüb. İyun ayında isə 9 faiz çox ölüm faktı qeydə alınıb.

Bildirilib ki, cari ilin may ayından başlayaraq, ölkədə havanın temperaturu mövsüm normasından +3,2 dərəcə selsi yüksək olub. Xüsusilə də İtaliyanın mərkəzində yerləşən şəhərlərdə daha yüksək temperatur göstəricisi qeydə alınıb. İyunda temperatur mövsümi orta göstəricidən +3 dərəcə selsi yüksək olub. İyunun sonu və iyulun ilk həftəsində isə ölkədə havanın temperaturu müsbət 37-40 dərəcə selsi arasında dəyişib.